*A L Ə M Z A R   Ə L İ Z A D Ə*

# *Ş Ə F F A F   H Ö R Ü K L Ə R İ N*
# *R Ə F İ Q Ə L Ə R İ*

***GƏNCƏ -  2013***

***Redaktor: RAMİZ TƏMKİN,***

***Aləmzər Əlizadə***

# ***"Şəffaf hörüklərin rəfiqələri".***

*İstedadlı şair- publisist Aləmzər Əlizadənin "Şəffaf hörüklərin rəfiqələri" kitabı dünyaşöhrətli alim, tanınmış şair Sədnik Paşa Pirsultanın və onun ailə üzvlərinin həyat yollarından bəhs edən ən qiymətli xatirədir. Burada Sədnik Paşa Pirsultanlı, onun həyat yoldaşı, istedadlı şairə Səfurə xanım Pirsultanlı, oğlu tanınmış etnoqraf-şair Səyyaf Sədnikoğlu Pirsultanlının və digər ailə üzvlərinin ömür yollarından bəhs edən maraqlı hekayələr öz əksini tapmışdır.*

***P 4700000000 qrifli nəşr***
***M-651(07)2013***

***DQ0302 Aj-013***

# *Müəllifdən*

Bu yazıya başlamazdan əvvəl elə bil ucu-bucağı görünməyən, məlum olmayan bir səhrada idim. İrəli getmək üçün səhranın hansı tərəfinə dönməyi dəqiqləşdirə bilmirdim. Bu böyük, geniş səhranın hansı səmtinə yönəlib, hardan başlasaydım dəxli yox idi. Bu yol məni mənzilə çatdıracaqdı. Mənimki yola başlamaqdı. Bu yolu başlamaq üçün bədii güc, mənəvi həvəs, fikir, beyin azadlığı, ürək sərbəstliyi əsas şərtləndəndi.

Adətən mən şeirlərimi, hekayələrimi yazanda kimsə bilməz, kimsə duymaz, kiməsə mane olmaz, heç bir işimə qarışmazdı. Elə indi də. Ürəyimin döyünməsinin heç bir işə, heç kimə, heç nəyə qarışmadığı kimi, bədii yazılarımın yaranması da beləcədir. Elə güman edirəm ki, əvvəlcədən nə yazdığımı kimsə bilsə həvəsim ölər, onu sona çatdırammaram. Gülməli olsa da, olmasa da belə izah edim:-Koroğlu Qıratla Düratını qırx gün, qırx gecə insan nəzərindən kənar saxladığı kimi, mənim bədii yazılarımın dünyaya gəlməsi də beləcədir. Yazılandan bir müddət keçəndən sonra kim oxuyur oxusun, kim görür görsün, daha qorxum olmur. Bu əsərin yazılmasının başlıca səbəbləri var. Ən birincisi, Sədnik müəllim haqqında maraqlı hadisələrin varlığı, onun qadınının ruhunu şad eləmək istəyi, bu istəyin uğrunda varından-yoxundan keçməyə hazır olmasının məlumluğu...

Mən bu əsəri aşkarda yazıram. Sədnik müəllimə telefonda hissə-hissə oxuyuram. O yazılan parçaları bəyəndiyini bildirir. Bəs niyə başdan yazmıram? Niyə bu əsəri gah ordan, gah burdan başlayıram. Bu mənim bədii xasiyyətimdə özümü narahat etməyən adətim, pərakəndəliyimdi. Mən bilərəkdən də belə işləmirəm, bunu düzəltməyə də cəhd göstərmirəm. Necə gəldi, hardan gəldi orda başlayıram, orda da nöqtəni qoyuram. Mən təkəm. Tərəfim Sədnikli, Səfurəli böyük bir dünya, böyük bir nəsil, böyük bir ailə, böyük bir həyatdır. Bu həyatın bəzi məqamları ayı, günü, saatı, dəqiqəsi kimlər üçünsə ibrətli görünər. Mən bu həyatı bacardığım qədər, bacardığım kimi yazmaq eşqinə düşmüşəm. Eşqimin uğrunda hələlik ancaq əziyyət çəkirəm. Gecəli-gündüzlü işləyirəm. Evimiz soyuqdur, çox vaxt işıqlarımız yanmır, başqa çatışmazlıqları danışmağa dəyməz. Barmaqlarım üşüyür deyə əynimdəki jaketin qolunu əlimə keçirib yazıram. Bir dəfə hekayətlərin hansınısa yazırdım. Yuxum gəldi. Ancaq yatmaq yox yazmaq istəyirdim. Bir anlığa yuxum qələmi əlimdən yerə saldı. Bərk diksindim, ayıldım. Yamanca qorxdum, qələmin yerə düşüb cingildəməsindən sonra yazmadım.

Hər gecə çətin, dəhşətli yuxular görürəm. Sabah 1995-ci ilin sonudur.

1996-cı ilin yanvar ayının yeddinci günüdür. Gecə işıqlarımız olmayıb. Sədnik müəllimlə axşam xeyli söhbətləşmişik. Bu gün yazmağa nəsə var. Tamam

arxayın, kimsəsiz, sakit bir yer axtarıram. Yoxdur. Mənim bacım, onun uşaqları bizdədir, uşaqlar bir yerdə qərar tutan deyillər. Yanlarında heç nə yazmaq olmur. Ürəyimdə yazdıqlarım çoxdur.

Şaxtalı, soyuqlu yanvardır. Bu gün işə getmirəm. Ayrı-ayrı günlərdə Səyyaf, Sahibə, Sabutay, Sədafət, Sərvanə və nəhayət Sərvanla danışmışam. Hərəsinin özünəməxsus danışıq tərzləri, dünyaya baxışları, ata-analarına, insanlara istəyi, münasibətləri müxtəlifdir. Hər biri ayrılıqda maraqlı mühakimələr yürüdür. Fikirlər söyləyir, ata-analarını, bacı-qardaşlarını daha çox sevmələri ilə fəxr edirlər. Onların hər biri analrını daha çox sevdiyini, onun sözünə daha çox baxdıqlarını qeyd edirlər (bu məhəbbət, bu istək ataları Sədnik müəllimə də aiddir). Səyyaf ötkəmliyi, sözü üzə deməyi və əyilməzliyi ilə tanınır. Sahibə elm adamıdır, sözü yüz dəfə ölçüb bir dəfə deyəndir. Sədafət ata-anasına, bacı-qardaşlarına qayğıkeşliyi ilə seçilir. Onların danışığında təbiilik, səmimilik xoşuma gəlir. Sərvanla Sərvanə ata-anaları barədə çox maraqlı danışırlar. Cümlələri elə bil qəsdən təbii şəklə salıb qarşısındakına söyləyirlər. Sərvanə danışıb gülən, Sərvan ciddidir. Sabutay işiylə danışığı düz gələndir. O, ata-ananın oğlu, bacı-qardaşlarının qardaşı, uşaqlarının atası və nəhayət, ləyaqətli bir qadının həyat yoldaşıdır. Sözdən çox əməli ilə cavab verəndir.

## *Tanrının sevdiyi gözəl*

Tanrı ən xoşladığı gülün, sevdiyi çiçəyin gözəlliyindən kəsib Pəmbə xanıma calamışdı. Bu qızın gözəlliyi özündən başqa kim görsə onu heyrətdə qoyur, könlünə, gözünə bayram əhvalı doldurur, dərdini, qəmini ovundururdu.

Bir qoca arvad bulaqda Pəmbəni bağrına basıb öpməkdən özünü saxlaya bilməmiş, üzünü göylərə tutub demişdi:

-Möcüzənə şükür, Allah! Yaratdığına şükür, Allah. A qızım, görüm, bəxtin də özün kimi gözəl olsun. Lap nağıllardakı mələklərdənsən maşallah!

Belə sözlər qıza qəribə gəlmədi, çünki belə sözləri çox eşitmişdi. Suyunu doldurub evlərinə yollandı.

Ona qəribə gələn nişanlısının əmioğlusu İbrahimxəlilin qorxub çəkinməyən baxışları idi. Yad oğlanın ona vurğunluğu, heyranlığı baxışlarında dil açıb danışırdı.

İbrahimxəlilin yeznəsi Fəriş əsgər idi. Bacısı Həcər evdə tək qorxurdu deyə Pəmbə onunla qalırdı. Oğlan hərdən bacısını yoxlamağa gəlir, yer-yemək gətirir, axşama düşəndə gecələyirdi. Bacısının evi tək göz olduğundan İbrahimxəlil də Pəmbəgillə bir otaqda yatırdı. Həcər ürəyinə qardaşının onun evində qalmasından heç bir şübhəli fikir gəlmirdi. Qardaşı qızın nişanlı olduğunu bilirdi.

Pəmbə özündən asılı olmadan İbrahimxəlilin bütün varlığını, düşüncəsini əlindən almış, onu əlacsız dərdə salmışdı. Oğlan bacısıgilə tez-tez, həm də axşama

yaxın gəlirdi. Hər dəfə onun gecəsini, gündüzünü qaranlıq eləyənin barmağında üzüyün parladığını görəndə qəlbinə kədər dolurdu. Bu kədər ürəyinin döyüntüsünün arasına girir, orada oynayır, kef eləyir, nizamlı ahəngin pozulmasından daha da şitənirdi.

Oğlan bacısını çox istəyirdi. Ona görə, Pəmbəni almağı beyninə sığışdırmırdı. Lakin hiss eləyirdi beyni gücsüzləyir, zəifləyir, ürəyi onu üstələyirdi.

Ürəyi isə kədərinənginə keçmişdi, qopara bilmirdi.

Kədər ürəyini cızdı, sıyırdı, zədələdi, himə bənd idi ki, çatlatsın.

İbrahimxəlilin buna gücü çatmadı. Düşünüb daşınmağın nəticəsi olmadığını yəqin edəndən sonra Pəmbəni qaçırdı. Üzüklü qızın qaçırılmsı yenicə qohumlaşmış, hələ bir-birilərinin xeyir-şərlərində lazımınca iştirak etməmiş iki nəslin arasında düşmənçilik körpüsü saldı.

Qohumları Fərişin qabağına ağır şərt qoydular: -Ya biz, ya arvadın. Bu biabırçılığı, bu beynamussuzluğu belə yuya bilərik.

Heç bir günahı olmayan cavan ailə dağıldı. Həcər hamiləydi. Oğlunu ata eində doğdu. Böyük dayısı Ədbülkərim uşağın adını "Quran"dan götürdü. Sədnik qoydu. Sədnik farsca yüz sevinc, yüz fərəh deməkdi.

Ərindən əlini üzməyən qadın üç il gözlədi. Gözlədi ki, bəlkə oğlunun atası sahib durub, onları başsız qoymaya. Öz əlləri ilə toxuduğu xalçaları qardaşı ilə Gəncəyə Fərişə göndərdi ki, satsın əlində maya eləsin.

Xalçaların pulu Fərişin yeni ailə qurmasına sərf olundu. Oğlunun atası ilə bir daha qovuşa bilməyəcəyini yəqin edən Həcər istəyənlərdən birinə ərə getməyə məcbur oldu. Sədnik dəcəl bir uşaq idi. Yerəgöyə sığmırdı.

Pəmbə Tanrının sevdiyi gözəl idi. O, öz yaratdığına könlünün xoş vaxtı nəzər salır, möcüzəsinə heyran olurdu. Pəmbəni bəzi insanlar sevə bilməzdi. Bu gözəlin özü də kimsəni sevib, kimsəni xoşbəxt eləməyə qadir deyildi. Ardı-arası üzülməyən günlərə qoşulub yaşayırdı. Belə yaşayışdan çox tez bezdi. İllah da ki, gözəlliyindən gələn qəzanın zərbəsinə düçar olan baldızı və onun oğlunun dərdini sinirə bilmirdi. Uşağın ata nəvazişindən məhrum olmasının səbəbini özündə görən, lakin əlindən heç nə gəlməyən Tanrının sevdiyi bu gözəl iztirab çəkir, ovuna bilmirdi. Pəmbə İbrahimxəlildən ayrıldı. Bu baldızı Həcərin həyatında yaxşılığa doğru heç nəyi həll edə bilməzdi. Bu kiçik Sədniki atasına qovuşdurmadı. Kiçik dayısı onu Gəncəyə atasının yanına apardı. Atası qaldı iki yol ayrıcında. O artıq evlənmiş, oğlu da var idi. O, Sədnikə oğlu kimi baxa bilmədi, ona yad idi, ögey idi Sədnik.

Yaranmışlar kimi yaranmışdı Sədnik, lakin anasının da oğlu ola bilmirdi. Atası oğlum deyib onu bağrına basanda ailəsi yenidən dağılırdı.

Leyli nənə nənəsiydi, can deyəniydi. Sədnik özü də dəcəldi, ipə-sapa yatmayandı. Nənəsi bacarmırdı

onunla. Hündür ağacların uca budaqlarıyla dostluq eləyirdi. Sıldırım qayaların zülləsinin sükutunu pozurdu. Dərin dərələrin qorxunc vahiməsiylə oynayırdı bu uşaq. Özündən kiçiklərin dostu, yaşıdlarının böyüyü, məsləhət verəniydi bu uşaq. Nənəsi bacarmırdı onunla. Söz daşa divara deyilirdi. Əlacsızlıqdan dayısı onu nənəsindən ayırdı. Gətirib Hacıkənddə sahibsiz uşaq evinə verdi. Ta müharibə başlayana kimi, dayısı əsgər gedənə kimi. Dayısı Sədniklə maraqlanırdı, yanına gediş-gəliş kəsilmirdi.

Balaca Sədnik uşaq evinin oğlu oldu. Dayısından sonra onu heç kim itirib axtarmadı, onunla heç kim maraqlanmadı. Atasının da, anasının da başları öz yeni uşaqlarına qarışmışdı.

***29 dekabr, 1995-ci il.***

## *Seli çiyinlərdə keçənlər*

Uşaq evinin müdiri Kərəm müəllim meylini saza-sözə bağlamışdı. Arvadı Zilxumarla birlikdə övlad qığıltısının fərəhini duymaqdan əllərini üzmüşdülər. Sədniki onun işlədiyi uşaq evinə qoyana kimi. Balaca, arıq, qarayanız, gözləri qaynayan Sədnik Kərəmin ürəyinə, özünə də məlum olmayan ılıq, gözəl, heç vaxt duymadığı xoş hisslər gətirmişdi. Bu hisslər gecə-gündüz ondan əl çəkmir, rahatlığını pozurdu. Qadını kişisindəki bu narahatlığının, qərarsızlığının səbəbini özündə axtarırdı. Hər dəfə də "axı, mən buna neyləyirəm" sualına cavab tapmırdı. Axşam-sabah ərinin qılığına girir, ondan bu dəyişikliyin səbəbini öyrənməyə çalışırdı.

Bu ailədə övladla bağlı söz-söhbətlər çox-çox əvvəlki günlərdə qalmışdı. Belə söhbətlərin ancaq qanqaraçılıq, baş ağrısı olmasından başqa heç nəylə nəticələnmədiyini görən ərlə arvad ümidlərini gözə görünməzə bağlayıb həyatlarını yaşayırdılar.

Kərəm müəllim evdə olduğu müddətdə sazı yerə qoymur, gözləri yol çəkir, hərdən gülümsəyir, hərdən qaşlarını düyünləyirdi. Bəzən öz-özünə nə isə götür-qoy eləyirdi. Maraq Zilxumarı əldən salanda axırda dözməyib ərini cırnatmaq qərarına gəldi:

-A kişi, belə görürəm sən təzə eşqə düşübsən, daha onu niyə gizləyirsən, aç de, utanma.

Kərəmin özünə də, arvadına da yazığı gəldi. Onların eşqi də, məhəbbəti də övladsızlıq alovunda alışıb yanırdı. Hər ikisi möcüzə baş verəcəyi, haçansa,

onların murazlarının hasil olacağı günü gözləyirdi. Onların qəlbinə inamsız hisslər hələ yol tapmamışdı. Onlara elə gəlirdi ki, nə vaxtsa evə girəndə küncdən-bucaqdan, stolun-stulun altından, ya da xalı-xalçanın dalından gözəl-göyçək toppuş bir uşaq üstlərinə cumacaq, sevinclə ata-ana-deyə qışqırıb qollarını boyunlarına dolayacaqdı. Buna özlərini o dərəcədə inandırmışdılar ki, özgə xəyala düşməyirdilər. Arvadının "təzə eşq" kəlməsi onu çox xəyallara aparacaq, çox xatirələri yadına salacaqdı. Xəyalı "təzə eşqi" olan könlündən, gözündən bircə an da uzaqlaşmayan, ona əziz, doğma gələn kiçik Sədnikin kədərli çöhrəsində cəmləşdi. Uşağın üzündə, gözündə yaşına, boyuna uyğun gəlməyən dərdin, qəmin dərin izləri hökmranlıq edirdi. Bu uşağın dərdini, qəmini ürəyinə, sinəsinə çəkmək, öz canına hopdurmaq Kərəm müəllimin ən böyük istəyinə çevrilmişdi. Bu Allahının ona göndərdiyi yaxşı və ya pis əməllərinin xoş nəticəsiydi. Budur, gözlədiyi, illərlə həsrətində qaldığı övlad onun qarşısına çıxmışdı, taleyini yenidən oyatmışdı. Onun daim arzuladığı möcüzə bundan artıq, bundan böyük, bundan qiymətli olmazdı.

Kərəm müəllim sazı ehtiyatla köynəyinə saldı, irəli yeriyib qadınının kəlağayısını başına çəkdi, sürüşüb irəliçıxan tellərini barmaqları ilə arxaya daradı, gözlərini sevinclə qırpdı və dedi:

-Əzizim, mənim iş yerimə gedək, təzə eşqimi gör. Sevincim yaman ağırdır. Hünərim çatmaz onu gətirməyə, bu gün mənə köməyin daha vacibdir. Qadını

kişisinin fikrindən heç nə anlamadı. Kəlağayısını açdı, yenidən örtdü. Sualla dolu heyrətli nəzərlərini ərinə dikdi. Kərəm çəkmələrinin bağını bərkitdi. Qadınının suallarını cavabsız qoydu, şirin-şirin ona pıçıldadı:

-Ay qız, qadan alım, gəl gedək, özün gör hər şeyi. Mən sənə heç nəyi başa sala bilmərəm. Gəl gedək.

Hər ikisi sahibsiz uşaq evinə çatana kimi dinmədi. Qapıdan içəri girəndə tərbiyəçilərdən biri Zilxumarı öpdü, buraya nə əcəb gəldiyini soruşdu. Xumar əli ilə ərini göstərdi:

-Vallah bilmirəm, bu kişi çəkib gətirib.

Tərbiyəçi Kərəm müəllimin bir neçə gün bundan əvvəl təzə uşaq qəbul elədiyini və bu uşağa onun çox meyilli olduğunu xəyalından keçirdi. Ona aydın oldu ki, yəqin təzə uşağı bunlar övladlığa götürmək fikrinə düşüblər. Təzə gələn uşağın gözündəki qəm tərbiyəçinin diqqətindən yayınmamış, onun da könlündə özünə yer eləmişdi. İstədi bu sözü müdirin arvadına xəbər versin, onun da bu uşağa meyilli olub olmadığını dəqiqləşdirsin, nə qərara gəldisə sözü başqa səmtə yönəltdi. Evdə-eşikdə nə var, nə yox deyib hal-əhval tutdu.

Zilxumar Kərəm müəllimin otağına keçdi. Kişisi ona yer göstərdi, oturdu. Yoldaşının otağının səliqə sahibinin işi olduğunu görürdü. Bu səliqə-səhmanı xoşuna gəldi. Hər dəfə buraların yır-yığışının xüsusi səliqə-səhman ən çox ərinin xasiyyətindən irəli gəlirdi. Evdə də beləydi, təmiz, səliqəli. Kərəm müəllim əlini arvadının çiyninə qoyub tapşırdı:

-Burdaca otur, indi gəlirəm.

Qucağında uşaqla içəri girəndə tərbiyəçi qadına hər şey aydınlaşdı. Yan-yörəsindəki iş yoldaşlarına məlumat verdi:

- Kərəm müəllimin arvadı gəlib. Təzə gələn uşağı da yanına apardı. Allah eləsin Zilxumarın xoşuna gəlsin. Uşağa yaman qanım qaynayır. Dədəmin canı üçün uşağım çox olmasaydı bunu özümə götürərdim. Bilirsiniz də uşaqlarım uşaq deyil, elə bil oddu, alovdu.

İş yoldaşları tərbiyəçinin sözünü təsdiqlədilər.

Ərinin uşaq qucağında içəri girməsindən Zilxumarın ürəyi atlandı. Diksinib ayağa qalxdı. Uşağın gözlərinə baxanda qəlbinin ən incə telləri əsdi. Elə bil itkin düşmüş balasını gördü. Elə bil bu uşağı neçə illərdir tanıyır, yolunu gözləyirmiş. Kərəm müəllim körpəni ona uzatdı:

- Get ananın qucağına, oğlum. Uşaq qadına doğru meyilləndi. Sonra qadın onu bağrına basdı, uşaq xırdaca qollarıyla Zilxumarın boynuna sarıldı. Körpəyə hansı əziz sözləri demək üçün götür-qoy eləməyə vaxtı olmayan Zilxumar "can", "can" kəlmələrini dalbadal düzürdü.

Uşaq arıq, qarayanız üzünü anasının üzünə sürtürmüş kimi qadının üzünə sürtür:

-Ana, mən səni axtarmışdım, sən haradaydın, haradaydın deyirdi.

Kərəm müəllimin sevinci gözlərindən daşırdı.

Evləndiklərindən bəri bəlkə də ilk dəfəydi bu boyda xoşbəxtliyin içinə düşmüşdülər. Onların hər ikisi ayrılıqda beyinlərindən keçirdilər:

-Özlərinin övladı olsaydı onda nə cür xoşbəxt olardılar?

Bundan oyanası məlum deyildi. Ancaq indiki anlarda, indiki vəziyyətdə onlar tam bəxtəvər idilər.

Uşağın gəlişi Kərəm müəllimlə Zilxumarın həyatını dəyişdirmişdi. Onların işinin-gücünün əvvəlki vəziyyəti pozulmuş, uşaqlı bir evin səmtinə yönəlmişdi. Balaca Sədnik sazı-sözü bu evdə eşitmiş, bu evdə dinləmiş, bu evdə heyrətdə qalmışdı. Atası onu stolun üstünə çıxarıb oturdur, saz çalırdı. Uşağın üzünə-gözünə, beyninə, ürəyinə dolan saz havalarını yorulmaq, usanmaq bilmədən ötür ona da çox maraqlı, bir aləm yaradırdı. Eşitdiyi mahnıları tez mənimsəyir, özününküləşdirirdi.

O, atasıyla aşıqların məclisinə gedir, böyük həvəslə onların sözünü, havasını könlünə, beyninə yığırdı. Sonra bu mahnıları oxumağa başladı. Atası ilə anası oğullarının şirin məlahətli səsindən yorulmur, onu öpüşlərə qərq edirdilər.Bu uşağı Allahın böyük payı, böyük neməti, böyük xoşbəxtliyi sayırdılar. Sonsuzluq onların, yetimlik isə balaca Sədnikin qəlbindən tamam silinib atılmışdı.

Bəxtəvər günlərin birində bütün dünyanı dəhşətə gətirən müharibə başlandı. Müharibənin fəlakətləri, dəhşətləri şəhərbəşəhər gəzir, kəndbəkənd dolaşır, xoşbəxtliyin, bəxtəvərliyin başına qapazlar salır,

gözlərini ovub çıxarırdı. Oğullar, atalar, qardaşlar günbəgün azalırdı.

Kərəm müəllimə çağırış məktubu gələndə Zilxumar saçlarını yoldu, şivən qopardı. Oğlu onun niyə belə etdiyini soruşdu. Anası uşağı ağlaya-ağlaya başa saldı. Uşağın beyni belə bir işin ola biləcəyini heç cürə qəbul eləmirdi. Lakin qanun-qanun idi. Gedəsilər getməliydi. Kərəm müəllimi rayon hərbi komissarlığına aparanda oğlu ondan aralanmadı. Hər cür qılıq, ovundurucu söz, təsəlli ona aid deyildi. Ayrılıq vaxtı çatanda uşaq atasının dizlərini qucaqlayıb dədə deyib elə bir fəryad, elə bir nalə çəkdi ki, hamı yerindəcə dondu. Bu dəhşətli naləyə, çığırtıya, hönkürtüyə qalib gəlib uşağı atadan aralamağa nə hökümətin, nə də qanunun gücü çatdı.

Hökumət adamının da ürəyi, qəlbi var, nə vəzifə, nə qanun qorxusu bu uşağa qalib gələ bilmədi. Kərəm müəllimi hərbi komissarlıqdan dala qaytardılar. Ailənin sevinci yerinə düşdü.

Aradan xeyli müddət keçdi. Yenə Kərəm müəllimə "çağırış" gəldi Bu dəfə də uşağın fəryadı daşların qəlbini yumşaltdı. Hərbi komissarlıqda vəziyyətlə tanış olmuşdular. Uşağın doğmaları tərəfindən atılması Kərəm müəllimin övladlığa götürməsi onların da qəlbini kövrəldir, çıxılmaz vəziyyətdə qoyurdu. Balaca Sədnikin körpəcə ürəyi ayrılıq vaxtı dağılmağa hökm eləyidi. Köz görəti uşağın zəhrinin yarılmasına dözmək faşist işiydi. Ona görə bu dəfə də Kərəm müəllimi müharibəyə aparmadılar.

Kənddə yağışlar ara vermirdi. Elə bil müharibədə ölənlərə göylər də yas saxlayıb, göz yaşları axıdırdı.Göz yaşları o qədər gücləndiki ki, kəndə sel gəldi. Güclü, qüvvətli selin ağzından yaxa qurtarmaq uşaqların, toyuq, cücələrin, xırda para ağacların işi deyildi. Bu selin qabağında qollu budaqlı ağaclar, özülü möhkəm qoyulmuş evlər, iri mal-qara güclə dayanırdı. Selin başına götürüb çığırda-çığırda apardığı uşaqlardan biri də Sədnik idi. Kərəm müəllimin gözünə sanki qaranlıq çökdü, beli büküldü, dizləri taqətdən düşdü və dərhal da özünü selin qucağına atdı. Çox çətinliklə uşağa çatdı:

-Qorxma, qadan alım, qorxma, gəldim, gəl, gəl yapış çiynimdən, çıx boynuma.

Oğlanın huşu hələ özündə idi. Bir təhər atasının çiynində özünə yer elədi. Huşu gah itir, gah özünə qayıdırdı. Kərəm müəllimə sanki əjdaha gücü gəlmişdi. Selin lap gur yerinə düşməsinə baxmayaraq birtəhər üzüb çıxır, sahilə can atırdı.

Sanki uşaqları boğub, daşdan-daşa çalmağı qarşısına məqsəd qoyan qorxulu sel yavaşıyıb, səngimək fikrində deyildi. Ancaq suya düşmüş uşaqların atalarının çiyni seldən daha güclü, daha əzəmətliydi.

Kərəm müəllimlə selin mübarizəsi xeyli çətin, qorxunc vəziyyət almışdı. Sel kişiyə tez-tez güc gəlir, onu boğub məhv eləməyə fürsət axtarırdı. Kişi selin fikrini duymuşdu. Ancaq qorxduğunu birüzə verməyib çarpışırdı. Yaxında quru yer göründü. Sanki onun gözünə işıq, qoluna qvvət axdı, ömrünə-gününə fərəh

gətirən oğlunu çiynindən alıb, quru yerə tulladı. Özünü sel yıxdı, əl-qolunu atıb iri bir kötükdən yapışıb durdu. Burada quru yer görünmürdü. Elə kötükdən tutub dayandı. Uşağın halının necə olması haqqında düşündü.

Sədnikin ombası qurudakı iri bir daşa dəyib əzilmişdi. Onun huşu itmişdi. Anasının göz yaşlarıyla əl-qolunun ovmasından qarnına dolmuş selin-suyun boşaldılmasından xəbəri olmadı. Qohum-qonşu haraya yetişdi. Uşaq özünə gəldi.

Bu müddətdə selin də həvəsi tükəndi, yavaşıdı, zəiflədi. Kərəm müəllim selin ağzından qurtarıb asta-asta camaata yaxınlaşdı. Ata-bala qucaqlaşdılar. Selin ağzından alınmış uşağların hamısı yaxşıydı, onlara heç nə olmamışdı. Onları ataları çiyinlərində quruya çıxarmışdılar. Bunu Sədnik sonradan bildi. Uşaqlardan soruşdu:

-Bəs məni niyə atam çiynində quruya çıxarmayıb, tullamışdı?

Uşaqlardan biri düşünüb-daşınmadan demişdi:

-Çünki Kərəm müəllim sənin doğma atan deyil.

Sədniki sel aparanda belə dəhşətə gəlməmişdi. Sel ona belə ağır, belə qorxunc təsir etməmişdi. "Doğma ata" sözü onu varından yox eləmişdi. O uşaqlardan ayrılıb qaça-qaça evə gəlmiş Zilxumarı iki əlləriylə tutub silkələmiş, doğma atasının kim olduğunu öyrənmək istəmişdi. Zilxumar oğlunun bu fikrə hardan düşdüyünü soruşdu.

-Uşaqlar dedilər ki, onlar sənin doğman deyil, ögeydilər.

Zilxumar çox ağladı, çox sızladı "ögey" sözünü uşağın beynindən poza bilmədi.

Zilxumar fikirli gəzir, fikirli dolanırdı. Oğluna qarşı münasibətində heç bir dəyişiklik hiss etmir, onu əvvəlkindən daha artıq məhəbbətlə sevirdi. Bu Sədniki təmin eləmirdi. Beynində, fikrində kök salmış "ögey" sözündən qurtulmaq iqtidarında deyildi.

Kərəm müəllimə yenə "çağırış" gəlmişdi. Zilxumarın dünyası yenə qaralmışdı. Oğluna yalvarırdı ki, ümidim, pənahım sənsən. Qoyma atanı müharibəyə getməyə.

Seli atalarının çiynində keçən uşaqları gözünün qabağına gətirən Sədnikin ombası yox, ürəyinin başı ağrıyırdı, özəyi göynəyirdi. İnad qəlbini sarmışdı. Sevinci, fərəhi bu evdə, bu ailədə dadmış olsa belə "ögey" sözü qara tikan kimi aralığa girir, onu atalı, analı xoşbəxt eləməyə qoymurdu.

Hərbi komissarlıqda heç bir hay-küy olmadı. Ögey sözü "ata" deyən naləni, fəryadı seldən kənarda quru yerdəki daşa vurub çilik-çilik eləmişdi.

## *İştahı pozan uşaq*

Ana nənəsiylə qalan Sədnik səkkizinci sinifdə oxuyurdu.Dağlar, dərələr, moruqlu kollar, çiyələkli talalar, çiçəkli düzlər, şirin bulaqlar oğlanı gur məlahətli səsindən, gözəl nəğmələrindən tanıyırdı. Ayağının basdığı yerdən nəğmə bitir, mahnı qaynayırdı. Kəndin uşaqları ürəklərə şirinlik, həzinlik çiləyən bu nəğmələrin qanadında Sədnikin başına yığışar, səsinə səs verər dünyanı mahnıya bürüyərdilər. Nənəsi onun corablarını, pal-paltarını, yamayır, əli ilə siğallayr, ütüləyirdi. Qapıdan girəndə arvad işini yarımçıq qoymadı:

-Ömrüm-günüm, anan xəngəl bişirib, get ye.

Oğlan üzü-gözü qırış-qırış olmuş, bürüşmüş, balacalaşmış nənəsinin sözündən iştahlandı, udqundu:

-Ay nənə, dur ikimiz də gedək, deyib nəvəsi qolundan qaldırmaq istədi.

Dizinə təzə yamaq salınmış şalvarı nənəsinin əlində göyə qalxdı. Ancaq qadın yerindən durmadı, onun əlini güclə qolundan araladı:

- Sən get başına dönüm, mənim işim çoxdu, sonra gələrəm deyib nəvəsinin başını yozmaladı.

Sədnik ac idi. Çox xoşladığı süzmə xəngəlinin həvəsiylə anasının evinə götürüldü. Evin ikinci pilləsinə bir ayağını qoyar-qoymaz anasıyla üz-üzə gəldi. Danışmağa macal tapmamış anası həyəcanla bildirdi:

-Kişi evdədir, sən get nənəngilə, mən xəngəli ora gətirərəm.

Xəyalında ləzzətlə yediyi üstünə ya xoruz, ya da hinduşqa əti səpələnmiş, süzməli, sarımsaqlı xəngəlin, mis sinisi Sədnikin iştahına ağır zərbəylə dəydi. İştahasının ağzı-burnu qanla-qəltan oldu, yaralandı, əzildi. Təhqir olunmuş iştahı onun bu evdə xort olduğunu yadına saldı. O, arxaya baxmadan geri dönüb qaçdı. Anasının evində süfrə başında bu yetimin əyləşməsi ərinin də iştahını pozurdu. Bu həqiqəmi, uydurmamı? Hər halda Sədnik belə qəbul elədi, belə gördü.

Evə qayıtmağa tələsmədi. Dərdini, qəmini, anasının yanındakı yetimliyini dağlara, düzlərə dağıtmağa yollandı. Nə üçün  başqa uşaqlar kimi anasının oğlu yox yetimi idi. Üzünü göylərə tutdu, yalvardı:- Mən sənə də ögeyəmmi, ay Allah. Barı sən məni ögey hesab eləmə.

Nənəsinin yanına sakit qayıtdı. Üzünün qırışlarından nur seli axan bu qarının nəzərindən yayınmaq, nəyisə gizlətmək müşkül məsələydi. O, nəvəsindən yerli-yataqlı hər şeyi öyrənmək üçün sorğu-suala tutanda qızı əlində bir boşqab xəngəl içəri girdi. Günahkar-günahkar anasına baxdı, dərdi açıldı:

-Neyləyim ay ana, bu tüfülü tuturam, o birilər yetim qalır, o biriləri tuturam, bu yetim qalır. Mən başıma haranın daşını, qayasını yağdırım. Anası təəccübləndi:

-Yenə nə olub, belə hay küynən gəlmisən?

Qadın dil boğaza qoymurdu. Özünün çıxılmaz vəziyyətini sübuta yetirmək üçün dəlillər gətirir, hamını bir-birinə qatır, günahlandırırdı:

-Məni heç yaratmayaydın, ay ana. Öz balamı, ciyərparəmi ürəyimcə böyüdə bilmirəm, vaxtlı- vaxtında yeməyinə, geyməyinə baxammıram, yarı canım qalır burda. Eh nə bilim, günahın hamısı bunun atasında oldu. O, boşqabı oğlunun qabağına itələdi:

-Ye, dərdin alım. Nənənlə sənin payındı.

İştahı küsmüş, uşaq xəngələ nifrətlə baxırdı. Səhərdən ac olmağı yadına düşmədi. Boşqabı hirslə əlinə alıb bayırdakı daşa çırpdı. Boşqabın iri qırığı xəngəlin yarpağı boyda xırdalandı. Nənəsi vəziyyəti başa düşdü. Nəvəsini qucaqladı:

-Fikir eləmə nənən qurban, anandı də, neynəmək olar. Yad oğlunun ocağının başındadı.

Uşaq başını nənəsinin köksündə gizlətdi. Anası peşiman-peşiman, doluxsunmuş halda çıxıb getdi.

## *Oğurluq*

Sədnik müəllimin 13-14 yaşı olanda məhəllə uşaqları ilə gavalı oğurluğuna gedirlər. Uşaqlarrın hamısı bağa doluşub gavalıları dərib, ciblərini, qoyun-qoltuqlarını doldurub qaçmaq istəyəndə bağ yiyəsi onları yaxalayır. Uşaqlar qorxularından yığdıqlarını yerə boşaldıb barının üstündən aşıb qaçırlar. Bağ sahibi küçədə çayın kənarındakı daşın üstdə sakitcə oturmuş Sədnikə yaxınlaşır:

-Ə, a bala, burda kimi gözləyirsən, hirsli-hirsli soruşur.

Kişinin kim olduğunu tanımayan Sədnik yol-daşlarımı gözləyirəm-deyir. Onlar gavalı oğurlayıb, mənə də verəcəklər.

Kişi hirsini boğub, uşağı sınağa çəkir:

-Bəs sən niyə burda oturubsan? Niyə yoldaşlarınla oğurluğa getməyibsən? Gavalı yemək istəmirsən?

Sədnik cavab verir ki, niyə istəmirəm, ay dayı, istəyirəm, ancaq, oğurluq edə bilmirəm. Kişinin bütün hirsi-hikkəsi bir andaca yox olur, uşağa deyir:

-Papağını mənə ver görüm.

Oğlan papağını çıxarıb kişiyə verir, kişi gedir. Bir azdan papaq dolu dadlı-ləzzətli gavalılarla dolu dala qayıdır:

-Al, bunlar sənindir, deyir, istəyirsən hamısını özün ye, istəyirsən də oğru yoldaşlarının hərəsinə bir-cə dənə gavalı ver, yazıqdırlar, qoy ağızları bişməsin.

## *Bu mənim oğlumdur*

Müharibənin əli-ayağı pörşələnib geri çəkilmişdi. Müharibənin ölüsünün üstündən salamat keçənlər gəlmiş, ürəklərdəki qorxunun, dəhşətin yerini inama yönəltmişdilər. Gəlməyənlərin əvəzinə bir tikə kağıza yas tutulur, müharibəyə lənətlər yağdırırdılar. O bir tikə kağız Həcəri ərsiz, övladlarını atasız qoymuşdu. Ərindən əli üzülmüş qadın həmişə ürəyində əzizlədiyi, yanında xəcalət qaldığı oğlunu yadına salmış, qızlarına hayan ondan başqa kimsənin olmayacağını dərk etmiş, uşağının dalınca uşaq evinə gəlmişdi. Sahibsiz uşaqların hər birinin kədərli cöhrəsi onun ürəyindəki, sonsuz dərdi, əzabı təzələyir, üstəlik bir az da artırırdı. Uşaqların kimisi bu yad qadına soyuq, kimisi də böyük ümidlə baxırdı. Qadın balasını axtarır, onun necə böyüməsini, necə dəyişməsini, görmək həvəsi qəlbini yandırır, ürəyini darıxdırırdı. Oğluna məhəbbəti o qədər güclənmiş, o qədər artmışdı ki, bütün dünyanı gəzməli olsa belə tapmasa geri qayıtmağını ağlına sığışdırmırdı.

Adını, familini dedi oğlunun. Orada belə uşaq yox idi. Ürəyi bununla sakitləşmədi ananın. Bir-bir hər uşağın şalvarının balağını çirmədi baxdı, özünün balası olmadığına əmin olandan sonra başqa uşaq evlərinə üz tutdu.

Onun ürəyinin başında, oğlunun isə sol qıçında yanıq yeri vardı. Oğlunun qıçındakı yanıq yeri çoxdan sağalmış, özünün ürəyinin başındakı yanıq göyür-göyür göynəyir, daim ona əzab verirdi. Ürəyinin

başındakı oğlu sarıdan almış bu yanığı, ərli vaxtı sanki kül altında qor kimi gizli saxlamış, indi üstü açılmış qor alovlanmış, ürəyini yanıqlar bürümüşdü. Arvadın bu yanğıya dözməyə tabı qalmamışdı. Əgər oğluna qovuşmasaydı ona elə gəlirdi ki, daha yaşamağının mənası olmayacaqdı. Oğluna qovuşmaq isə asan məsələ deyildi. Çünki, onun yeri-yurdu yoxdu. Harda axtarsın, kimdən soruşsun. Vaxt o vaxt, zaman o zaman deyildi. Müharibə hamını korşaltmışdı.

Həcər uşaq evlərindən birində oğlunun yaşından xeyli balaca uşaqların ayağına baxanda tərbiyəçilərdən biri maraqlandı:

-Bacı, sizin uşağın yaşı gərək ki, böyükdü, niyə elə balacaları yoxlayırsınız?

Qadın elə bil yuxudan ayıldı:

-Dərdin alım, oğlumu bu yaşda itirmişəm, heç onun böyüməyini fikirləşmirəm. Elə bilirəm onu tapıb özüm böyüdəcəm.

Ana uşaq evlərini bir-bir gəzir, uşaqları bir-bir nəzərindən keçirir, gündə yüz dəfə, min dəfə ürəyi atlanır ki, tapdım, ancaq günlərini yenə məyus başa vururdu.

Ürəyinə dammışdı oğlunu tapacaq. Axtarmaqdan bezmir usanmırdı. Yalanına, düzünə baxmayıb bir kəlmə sözün ucuynan uzaq bir rayona, şəhərə yollanır, bütün uşaq evlərini ələk-vələk eləyir, gözü yaşlı dala qayıdırdı.

Tale bu qadına çox zərbələr endirmişdi. Elə bil bu qadının əzablarından həzz alırdı Tanrı. Bu əzablardan

ən dözülməzi oğluyla bağlıydı. Oğluna ana olmağı üç qızının yetimliyi, üç qızına ana olmağı oğlunun yetimliyi ilə nəticələnmişdi. Oğlu yetim qalmışdı. Uşaq evinin oğlu olmuşdu. Ananın ürəyi əzilir ölmək istəyir, lakin balasını tapmaq ümidi ilə döyünürdü. Balası tapılmırdı.Yeri-yurdu məlum deyildi.

Qadın fikirləşirdi:

-Allah özü mənə bilərəkdən cəza verib. Gərək balamdan ayrılmayaydım. Nənənin beli bükülmüş, saçı ağarmış, dərdin, qəmin əlində əsir-yesir olmuşdu. Oğul itirən bu qadın nəvəsinin dərdini çəkib qurtara bilmirdi. Qızının gününü göy əksiyə düyür, ona rahatlıq vermirdi. Qızının öz dərdi özünə bəs deyilmiş kimi anası da onu bir yandan haldan salırdı. Elə bil bu iki qadının taleyi bircə Sədnikdən asılı qalmışdı. Elə bil uşaq evinin oğlu olmuş Sədnik bu iki qadının yaşaması üçün əsas şərt olmuşdu. Bəlkə də Sədnik yarandığı gündən belə əzizlənməmiş, belə doğmalaşmamış, belə İlahi məhəbbətlə sevilməmiş, belə ürəklə arzulan-mamışdır.Göylərdən oğulluq məhəbbəti enmiş, bütün uşaq evlərini gəzmiş, ayağının altına almışdı. Göylərdən enən bu məhəbbətin qabağını dağlar, dərələr ucsuz-bucaqsız yollar, soyuq küləklər, yandırıcı günlər, heç nələr, heç nələr saxlaya bilmirdi. Bəzən bir gündə bircə içim suya həsrət qalan, ayaqları suluq-suluq olan, ürəyinin taqəti kəsilən Həcər belə əzablarına gülür, oğluna qovuşmaq istəyi birə min qat artırdı.

Ürəyində neçə dəfələrlə nəzir-niyaz paylayan ananın səbr-qərarı tükənmirdi. Bəzən Allahına, Tanrısına asi düşür, yarandığı günə peşiman olurdu. Oğlunu tapıb uşaq evinin oğulluğundan qurtara bilmirdi. Oğlunun anası ola bilmirdi. Bu dərd qadını qurudur, çərlədirdi.

Vaxtında oğluna ana olmamasının baiskarlarına nifrinlər, qarğışlar yağdırırdı. Sanki bu nifrinlər daşa-divara dəyib özünə qayıdırdı. Bu onu daha bərk sıxır, daha bərk hirsləndirirdi.

Bir dəfə yenə oğlunun sorağı ilə bir uşaq evinə gəldi. Sanki küləkdən qanad alıb uçdu. Uzaq rayonda yerləşirdi oğlunun qaldığı  uşaq evi. Ona uşaqlar ürkək-ürkək, qorxa-qorxa, ümidlə yaxınlaşır, qanadı qırılmış quş kimi geri çəkilirdilər. Bu onların anası deyildi.

Qıçındakı yanığı çoxdan unutmuş Sədnikin bədəninə qarşısındakı qadının əllərindən ılıq, xoş bir hərarət axdı. Qadın titrək əlləri ilə yanığı sığallayır, gözünün yaşı sel kimi axırdı. Başını qaldırmağa gücü çatmırdı. Sanki başını qaldırsa yanığı itirəcək, oğlunu bir daha tapmayacaqdı. Bəlkə də belə deyil, başını qaldırmağa qorxurdu ana. Həcər o qədər həyəcan-landı, o qədər sevincək oldu ki, oğlunun üzü-nü düz əməlli görmədən huşunu itirdi. Sədnikin qadına yazığı gəldi, haray-həşir saldı. İşçilər tökülüşüb onu ayıltdılar.

Həcər oğlundan aralanmır, öpüşlərə qərq eyləyir, “oğlum, pənahım”, deyə-deyə özü ilə bərabər yanındakıları da ağladır, ürəklərini qana döndərirdi.

Belə gününü hər an arzulaya-arzulaya yaşayan, buradakı uşaqların da ürəyinə inam dolmuşdu, gözləri yaşarmışdı. Onların ümidi lap çoxalmışdı. Elə yəqin eləyirdilər bu qadın onların anasıdı. Gəlib onları da aparacaq. Sədnikin yerində özlərini hiss eliyən uşaqlar hoppanıb düşür, bir-birini qucaqlayır, zarafatlaşırdılar. Ancaq onların taleyi məlum deyildi.

Sədnikin anası uşaq evinin çirkli divarlarını da öpdü. Öpdü ki, bu uşaq evi balasını saxlayıb ona qaytardı.

***1 yanvar, 1996-cı il.***

## *Şəffaf hörüyün rəfiqələri*

Aşağı əyildikdə qoşa, xurmayı hörüklər çayın gur, şəffaf hörüyünə qoşulub axır, dikəldikdə sudan üzülüşürdülər. Şəffaf hörüyün xurmayı hörüklərdən xoşu gəlirdi. Onları fürsət düşəndə sinəsinə çəkir, özüylə bir axıdır, buraxmaq istəmirdi. Xurmayı hörüklərin sahibi balaca zərif əlləriylə paltar suya çəkirdi. Dənizdən, göldən fərqli bu hörüklü çayın içində qız hörüklü su pərisinə bənzəyirdi. Qızın xurmayı hörükləri çayın şəffaf hörüyünün davamı kimi axırdı. Hörüklər beləcə qovuşur, beləcə axışır, beləcə can bir, ürək bir, qəlb bir olurdu.. Hərdən xurmayı hörükləri sudan aralananda şəffaf daşqınlar ətrafa səpələnirdi. Şəffaf hörük bu daşqınları özündə gizlədir yeniləriylə xurmayı hörükləri bircə-bircə bəzəyirdi.

Hörüklərin gözəl oyunu Sədniki ovsunlamışdı. Nə irəli yeriyib səsini çıxara bilirdi, nə də geri qayıtmağa gücü çatırdı. Oğlanın nəzərində sarışın şəfəqlər saçan, günəşə bənzəyən sarışın qızın, sarışın şəfəqlərindən onun ürəyinə ilk dəfə hiss etdiyi doğma, mərhəm xoş və gözəl duyğular axırdı. Bu gözəl duyğularla qəlbinə dolub üzünə-gözünə yayıldı, dilinin bu anlara qədər heç kəsə söyləmədiyi ən şirin sözlərinə çevrildi:

-Könlümü, gözümü sevindirdin gözəl, səni alsam gələrsənmi?

Qəfil səsdən şəffaf hörüyü əlindən çıxan xurmayı hörüklər diksindi, iri ala gözlər maraqla heyrətdən

parladı, lalə rəngli dodaqları xəfifcə titrədi, şaftalı çiçəyi rəngli yanaqları daha da allandı. Bir andaca qəşəng sir-sifətinə, gözəl boyun-boğazına, abır-həya rəngi çiləndi. Qız çaşdı özünü itirdi, cavab vermədi. Gah yuyulub sıxılmış paltarları suya tökdü, gah sulu paltarları ləyənə yığdı. Burdaca dünyanın ən əzizinə, ən böyük istəyinə çevrilən qızın narahatlığına, həyəcanına Sədnikin ürəyi dözmədi, çıxıb getdi. Onu azad buraxdı, narahatlıqlar içində çırpına-çırpına qalan oğlanın əhvalı pozulmuş, nəylə ovunması mümkün olmayan eşqə düşmüşdü. Sarışın qızın günəşə bənzər xəyalı icazəsiz, təklifsiz onun olmuşdu, ürəyinə, qanına, iliyinə hopmuşdu. Bu xəyal onunla yatır, onunla oyanırdı.

Sədnikin dostları, tanışları çox idi. Lakin darıxırdı. Hamının yanında darıxırdı. Belə məqamlarda ürəyini ancaq sarışın qıza açmaq istəyirdi. Qəlbində onunla üzbəüz oturmaq, yaşadığı bu 26 illik həyatı birər-birər ona söyləməyi qəlbindən keçirirdi. Qazaxyol-çular kəndində oğlanla qızın baş-başa verib istədikləri yerdə pıçıldaşmaları mümkün deyildi. Elə ona görə də sarışın qızın "hə" sini aldı. Nişanlandı. Sədnik qızın anasının yanına gəldi, hal-əhval tutdu. Söz arasında bildirdi:

-Şəhərə gedirəm xala, icazə verin Səfurə xanımı da özümlə aparım. Yaxşı olar paltarı əyninin üstündə, bəyəndiyini alaq.

Qız anası razılıq verdi.

Gözü daim gözəllik arayan, dağların, düzlərin mənzərələrinə heyran qalan, nəğmələrini suyun şırıltısına qatan, xurmayı hörükləri torpaqlarını ötən Səfurə xanım Tanrının hökmünə tabe olurmuş kimi yuyundu, darandı. Sıxılıb çəkinə-çəkinə nişanlısıyla Gəncəyə gəldi. Bu boyda bəxtəvərlik Sədnikin ürəyinə sığmırdı, aşıb daşırdı. Günəşə bənzətdiyi sarı gözəlin evində oturmağını yuxu hesab eləyirdi. Bu qız onun doğması, istəklisi, əziziydi. Bu qız yerin, göyün ona bəxş elədiyi ən qiymətli nemətiydi, varıydı. Bu zərif varlığın könlünü oxşamaq, titrəyən ürəyini sevincə bələmək oğlanın həyatının mənası oldu. O, qızın hörüklərini sığallayır, üz-gözünü şəfqətlə oxşayır, kimsənin eşidəcəyindən ehtiyat edirmiş kimi xəfifcə pıçıldayırdı:

-Sarı gözəlim, sarı mələyim, Səfurəm mənim.

Qız titrədi, uçundu, yavaşca pıçıldadı.

-Qorxuram. Məni evimizə apar.

Xoşbəxt, bəxtəvər, olmuş əlləri ilə oğlan qızın saçlarını günəşin şəfəqləri tək açıb tökürdü. O, şirin əyləncəsindən qalmayıb.

-Narahat olma, dərdin alım, dedi, evimiz buradı. Daha burdan heç yana gedəsi deyilik. Qız bərk həyəcanlandı, yalvardı:

-Apar, apar məni evimizə nolar? Axı, anam məni gözləyir.

-Səni heç kəs mənim qədər gözləməz, sarı gözəlim, canım, ciyərim. Səni qaytara bilmərəm, ömürüm,

günüm nə özüm dözmərəm, nə də eşidən-bilən yaxşı deməz.

Hələ uşaqlıq aləmindən qopub ayrılmayan qızcığaz bu evə gəlin gəldiyini anladı, başa düşdü.

İki könül, iki qəlbin döyüntüləri, çırpıntıları biri-birinə qarışdı, qovuşdu. Onlar xurmayı hörüklərin sarı şəfəqlərinə bələndilər.

## *Sındırılan oyuncaqlar*

İlk övladın fərəhi ev-eşiyə sığmır, həyət-bacaya tökülür, ordan da küçəyə, şəhərə yayılırdı. Dostların, tanışların, əzizlərin qəlbinə səpələnirdi. Körpənin yatmağı, durmağı, əl-qolunun hərəkəti, zərif qığıltısı belə Səfurə xanıma, Sədnik müəllimə heyrət qarışıq ürək dolusu sevinc bəxş eləyirdi.

Qadın əyilərkən üzü, gözəl hörükləri ondan əvvəl uşağının üz-gözünü öpdü, sığallayırdı. İlk dəfəydi onun hörüklərinə acığı tutdu. O, özbaşınalıq eləyən ərköyün hörükləri hirslə arxaya atır, üzünü balasının üzünə söykəyir, nəfəs-nəfəsə, göz-gözə dayanmaqdan yorulub bezmirdi. İnadkar hörüklər ana-balanın arasına girməyə çalışır, onların şadlığına qoşulmaq üçün az qala əl-ayaq açırdı. Səfurə xanımın hövsələsi lap tükəndi. Bayaqdan qoşa hörükləriylə mübarizəsini ləzzətlə seyr edən ərindən xəbərsiz qadın hörüklərinin

əl-qolunu bağlayıb, başının arxa tərəfində sancaqladı. Sədnik müəllimin ürəyi yerindən oynadı:

-Amandı Səfurəm, o hörüklərini dustaq eləmə, aç burax, mən buna dözəmmərəm.

Səfurənin gözəl, gülümsər çöhrəsi alındı, qeyri-ixtiyarıəlini saçına atdı. Sancaqları çıxartdı, hörüklər sevinclə qadının kürəyində yırğalandılar.

-Bax, belə əzizim, deyib, kişi onun hörüklərini sığalladı.

Qadını nazlandı:

-Ay Sədnik, hörüklərim özlərini uşağın üstünə elə salırlar ki, elə bil uşaq-zad görməyiblər. Az qalırlar balamı yesinlər. Ana uşağı, ata isə hər ikisini sinəsinə sıxdı.

Evdə oyuncaq əlindən yer yox idi. Növ-növ maşınlardan tutmuş it, pişik, ayı, dovşan, gəlinciklər, körpəcə Səyyafın toppuş əlləri ilə oynadılan günlərini səbisizliklə gözləyirdilər. Ata-ana gecə-gündüz uşağın başına dolanır, gündə min dəfə, milyon dəfə qadasını alır, sözlərini, söhbətlərini oğullarıyla başlayır, oğullarıyla bitirirdilər.

Beşikdən asılan, uşaqla birlikdə yürgələnən gombul, bəzəkli dovşan balasının gecə-gündüz gözləri bərəlir, ona sarı uzadılacaq xırdaca əllər yayqın hərəkətlər eləyir, elə bil heç gumbul dovşanı görmürdü. Bu gombul dovşanın xətrinə dəyirdi. Ancaq inciyib, küsüb gedə bilmirdi. O beşiyə bərk bağlanmışdı. Bir gün xırdaca əllər gombul dovşana tərəf uzandı. Onu tutmağa meyilləndi. Sevincindən dov-

şanın gözləri daha da bərəldi. Səyyaf əl çəkmədi. Dovşanı beşikdən qoparmağa çalışırdı. Dovşanın da daha beşikdə yırğalanmaqdan haşı hərlənirdi. O uşağın qucağına girmək, onunla oynamaq arzusundadaydı. Uşaq uşaq diliylə dovşanı yanına çağırır, dovşan oyuncaq diliylə, "gələ bilmirəm" deyir, hər ikisinin səsi evi başına götürdü.

Yemək hazırlayan ana oğlu ilə dovşanın səsinə boylandı, gördüyünə inanmağı gəlmədi.Oğlu qığıldana-qığıldana dovşanı özünə tərəf çəkir, ipindən qoparmaq istəyirdi. Səfurə xanımın varlığı sevincindən titrədi. "İstəyinə qurban olum" deyə-deyə oğlunu və dovşanı beşikdən açdı, bağrına basdı. Uşaq dovşanı xırdaca əlləri ilə tutdu. O yan-bu yana çevirdi, sonra ağzına apardı, anası uğunub getdi.

-Ay sənə qurban olum, xoşuna gəldi dovşan? Sənin dovşanına da, özünə də qurban olaram elə.

Anasının nəzərində elə bil oğlu böyük bir möcüzə göstərmişdi.

O sevincini, fərəhini istəkli əriylə bölüşməyə tələsdi.

Əri isə işdən qayıtmamışdı. Anlar, dəqiqələr, saatlar sanki yerindən tərpənmirdi.

Oğlu ilə gözü bərələ qalan dovşan xeyli oynadılar. Gözünü yuma bilməyən dovşan uşağı yuxuya verdi.

Qadını Sədnik müəllimi bu gün daha böyük fərəhlə qarşıladı. Oğullarının ilk istəyindən danışmaqdan doymadı. Uşağın səsi çıxanda hərəsi beşiyin bir tərəfindən boylandı. Hər ikisi uşağı birinci götürmək

istədi. Uşağın dodağını büzüb ağlamağa hazırlaşdığını görən ata, anaya güzəştə getməyə məcbur oldu. Anasının qucağında uşaq ağlamağı heç yadına da salmadı. Atasının əlində tutduğu gözü bərələ dovşanı gödü. Cuppulu əllərini  ona tərəf uzatdı, qığıldadı. Atasının gözlərində yaş parladı. Bu qadının nəzərindən yayınmadı. Cəld uşağı ərinin qucağına ötürdü.

-Bıy, sən lap gerçəklədin, ayə..... Heç uşaq görməmisən? Heç uşaq olmayıbsan?

Sədnik müəllimin gözündə parlayan bir damla yaş yanağı boyu axdı, əlindəki dovşanın üstünə düşdü. O, uşağı fərəhdən qabaran köksünə sıxdı,  öpüşlərə qərq elədi,  uşaq çığırdı, ağladı. Atası əlində saxladığı gözü bərələ qalan dovşanı ona verdi. Oğlu ağlaya-ağlaya dovşanı ağzına apardı. Sədnik müəllim bu dəfə balasının ağzının –gözünün suyuna bələnmiş dovşanını öpdü..öpdü.. Qadını yoldaşının  gözünün yaşını sildi. Məni də kövrəltdin ay dəli.. Dedi:

- Mən də ağlayaram ha...

Sədnik müəllim elə bil yuxudn ayıldı, Səfurə xanımın bir az əvvəl verdiyi suala indi cavab qaytardı:

-Hə, əzizim, mən heç vaxt uşaq olmamışam. Sənin ağlamağına isə ürəyim tablamaz, qadan alım.

Evdə oyuncaqlarının sayı hər gün artırdı. Balaca Səyyaf bir oyuncaqları bir gün, ya bir saat, ya da lap az, əlinə alan kimi atır, qırır, dağıdırdı. Atası buna sevinirdi, ürəklənirdi. Qırılmış, sınmış oyuncaqları yığır, tullayır daha gözəl, dah qəşənglərini alıb gətirirdi ki, oğlu oynatsın.

Uşaq bəzən bir oyuncaqla çox oynayanda atası təəccüblə qadınına baxır, nə üçün bu oyuncağı oğlunun qırmadığını soruşurdu. Səfurə xanım ərinin xasiyyətini bildiyindən onu yozdurmağa çalışır, uşağın oyuncaqları qırmağında heç bir yaxşı hal olmadığını başa salırdı. Amma o da həmin andaca oğlunu yanında oturar qəşəng bir maşını ona verərdi:

-Al, dədə, sənə qurban olsun, vur qır.

Uşağın əlləri bir andaca maşını sökür, dağıdır, hər hissəsini bir yana tullayırdı. Sədnik müəllim qadınının hirsləndiyini görürdü, özünü o yerə qoymurdu.

Bir dəfə oğlunun çox xoşuna gələn bahalı oyuncaq telefon aparatı aldı. Səyyaf bunu qırmırdı, maraqla oynadırdı. Atası neçə gündən sonra dilə gəldi:

-Bunu qır, gözümün işığı, daha yaxşısını alacam sənə. Səfurə xanım buna dözmədi, oyuncağı uşağın əlindən aldı. Ərinə acıqlı bir nəzər saldı:

-Belə olmaz, Sədnik, qırdıqları bəsdi, hər şeyin həddi var axı!

Sədnik müəllim arvadının hörüklərini açılmış ucunu hörə-hörə dilləndi:

-Səfurəm, heç bilmirəm yetim qalmış uşaqlığımın heyfini necə çıxım. Elə bilirəm ki, balama nə qədər çox oyuncaq alsam, nə qədər çox pul xərcləsəm, onun əziyyətini daha artıq çəksəm, bir o qədər rahat oluram.

## *Düzəlməyən iş*

Səfurə xanımın dayısının Sədnik müəllimə işi düşür. Bacısı qızı gilə gəlib, onu axşama kimi gözləyir. Müəllim gəlib çıxmır. Kişi başlayır Sədnik müəllimi pisləməyə:

-Bacıqızı, deyir, sənin həyat yoldaşın yaxşı adam deyil, gecə-gecədən keçib hələ də çöllərdədir. Evindən-eşiyindən xəbəri yoxdur.

Dayısına böyük hörmət qoyan Səfurə bu sözlərdən sonra bərk hirslənib onu danlayır:

-Dayı, başqa adam olsaydın, vallah, saçına-başına baxmayıb evimdən qovardım. Heç kimin ixtiyarı yoxdur ki, mənim həyat yoldaşım haqqında artıq-əskik söz danışsın. Mən Sədniki hamıdan yaxşı tanıyıram. Onun evə gec, ya tez gəlməyi heç kimi narahat etməsin. Onun iş yerinə səni "propska"ilədə buraxmazlar. Dayısı gördü ki, sözləri bacısı qızının xətrinə möhkəm dəyib, daha oturmadı. Durub getdi.

Yolda Sədnikə rast gəlir. Bacısı qızından ona şikayətlənir ki, bəs Səfurə məni biabır etdi.

Sədnik müəllim dərhal işin nə yerdə olduğunu anlayıb deyir:

-Dayı, sən mənim əleyhimə danışıbsan, yoxsa Səfurə belə etməzdi.

Kişi cavab verməyib uzaqlaşır.

Sədnik müəllim işin əslini başa düşür, dayının işini düzəltmir.

## *İki ördək*

Evləndikləri gündən Sədnik müəllimlə Səfurə xanım biri-birilərinə dedikləri sözün, verdikləri vərdin oyanı-bu yanı olmazdı. Hər birinin istəyi, arzusu o birinə yazılmamış qanun idi. İnam, güvənc, etibar, sədaqət, dözüm və qarşılıqlı sevgi bu ailənin təməlindən yaranmışdı.

Ona görə də, bütün çətinlikləri, xoşbəxtlikləri birgə yaşayıb birgə keçirdilər.Səfurə xanımın kiçicik bir istəyinin dalınca keçilməz sədləri aşmaq iqtidarında olan Sədnik müəllim duydu ki, qadını təzə balıq istəyir. Qış olmasına baxmayaraq Gəncədə balıq tapılmadı.

Sədnik müəllim oğlu Səyyafa tapşırıq verdi ki, maşını çıxart, gedirik. Kiçik oğlu Sərvan da onlara qoşuldu. Qadın nə qədər dil tökdüsə, vallah, elə belə istədim, balıq zad lazım deyil. Getməyin. Nə vaxt olar,  onda da alarsan, Sədnik müəllimin ürəyi durardımı ki, sevgili xanımının arzusu ürəyində qalsın. Əsla!

Onlar yola düşdülər, Səyyaf maşın sürürdü. Atası qabaqda onun yanında, Sərvanda arxa oturacaqda rahatlanmışdılar. Tərslikdən Yevlağa çatdılar, balıq tapmadılar. Soyuq, şaxtalı hava hökm sürürdü.

Zaqatalanı yolunda Xanabad qəsəbəsində tanış balıqçılar yaşayırdı. Maşın ora çatıb dayandı.

Sədnik müəllim xanımının ürəyi istədiyi balıqlardan alıb yola düzələn məqamda gözünə bir alaburun  ördək sataşdı ördəyi 9-10 yaşlarında oğlan

satırdı, ördəyin  çox qəribə və qeyri-adi gözləri par-par parıldayır, sanki, ətrafa işıq saçırdı.

Professor əlini cibinə salıb bir xışma pul çıxarıb uşağa uzatdı:-Ördəyi mənə ver, dedi. Uşaq pulların içindən ördəyinin qiyməti qədərini götürmək istəyəndə, Sədnik müəllim əlindəkilərin hamısını ona verib, halal-xoşun olsun, elədi. Uşaq sevinib götürüldü.

Atası ördəyi karton qutuya yerləşdirib Sərvanın börünə qoydu ki, onun başı qarışsın, yolda darıxmasın. Yolçular deyə-gülə uzaq yolu yaxın eləyib evə çatdılar.

Ördəyi hinə salıb qapısını bağladılar ki, uçub-qaçmasın.

Hər bir xörəyi özünəməxsus ləzzətlə bişirib süfrəyə gətirən Səfurə xanımın balıq qızartması ailənin sevincinə sevinc qatdı.

Səhər ördəyədən və su verib yeniden hinə salıb qapısını bağladılar.

Qar yağıb bağ-bağçanı ağartmışdı. Sədnik müəllim hər səhər olduğu kimi bu gündə saat $6^{00}$ da yuxudan oyanıb təmiz havaya çıxmışdı. Hinin qapısı ağzında srağagün alıb gətirdiyi ördəyin ölü kimi qarın üstünə sərələndiyini görüb cəld onu götürdü. Ördək ölməmişdi. O, hinin qapısına baxdı. Qapı bağlı idi, tez Səfurə xanımı səslədi. Qadın yuxulu-yuxulu bayıra boylanıb ördəyi kişinin əlində tutduğunu anlayıb cəld xalatını çiyninə saldı. Həyətə düşdü. Maraqla soruşdu:

-Nə olub, qoca (o ərini bəzən də belə əzizləyirdi). Ördəyi niyə əlində tutmusan?

Kişi işarə ilə hinin qapısını göstərib-Ayka, dedi, hinin arxası açıq qalan yeri var. Bir bax, yazığ quşcuğaz çıxıb qarın üstündə az qala soyuqdan donub öləcəkdi. Yaxşı ki, tez bilib götürdüm.

Səfurə xanım hinin böyür-başını tamamilə bağlı olduğunu yoxlayıb qapısını açdı. Hindəki ördək təkcə bayıra cıxdı. İki ördək-eyni rəngdə, eyni boyda idi. İki quşcığaz yanaşı durub başlarını, dimdiklərini bir-birinə sürtür, ər-arvadı heyrətdə qoydular. Onların nitqi kəsilmişdi. Burda onların həyətində Tanrının möcüzəsi baş vermişdi. Hindəki ördəyi uzaq sərhəd rayonundan alıb gətirmişdilər. Bəs bu biri ördək bu ünvanı necə tapmışdı. Bu qarda, çovğun da bura necə gəlib çıxmışdı. Onu bu həyətə kim salmışdı? Cavabsız suallar kişiylə qadının beynini yorub onları dərin düşüncələrə qərq edirdi.

Handan-hana Səfurə dilləndi:

- Onları gətirən məhəbbətdir-dedi.

Nə səhər, nə o biri gün ördəyin bura necə gəldiyini heç kim, heç nə öyrənə bilmədi.

Sədnik müəllim fikirləşdi ki, bu ördəkləri kənddəki qohumlarıgilə aparsın. Sonra onları ekspertə göndərər. Ördək uzaq məsafəni necə uçub gələr? Lap uçmağı bacarsalar da bəs onun ünvanı hansı instiqlə tapabilər? Bu çox maraqlı, çox da sirli hadisəni öyrənmək doğrudan pis olmazdı.

Ördəklər kənddə qalırdı. Bir gün ev yiyesigilə hörmətli qonaqlar gəlibmiş. Onlar ördək yemək istəyiblər. Ev yiyesi belə düşünübmüş ki, ördəkdi də, bunları kəsim qonaqlar yesin, başqasını alıb yerinə qoyaram. Belə də edib.

Sədnik müəllim alimlərlə danışıb, məsləhətləşib onları ekspert etmək üçün laboratoriyaya gətirmək qərarına gəlir.

Ördəklərin yerində başqalarını görəndə gözlərinə inanmır. Soruşur ki, öz ördəklərim hanı?

Ev yiyəsi hadisəni danışır. Ördəkləri kəsib qonaqlara yedirtdiyini deyəndə, Sədnik müəllim necə mütəssir olursa bir kəlmə də dillənə bilmir. Kor-peşiman geri qayıdanda öz-özünə danışırmış kimi söylənir:

Ay namərdlər, bu cür ağıllı ördəkləri də kəsib yeyərdilərmi?

## *Bir şüşə zəhər*

Ağır xəstələnmişdi Sədnik müəllim. Dünya işığına baxmağa halı yox idi. Oğul-uşaq bir-birinə qarışmış, Səfurə xanım dərd-qəm içində çırpınırdı. Bu günlər elə bil evin yaraşıqlı çılçırağının şöləsi azalmış, divardan asılmış, yerə döşənmiş xalı-xalçanın rəngi sozalmış, büllur qab-qacağın parıltısı qalmamışdı. Bər-bəzək içində həmişə avazla cingildəyən saatın səsindən indi kədər tökülürdü.

Xəstəlik ailədə sevinci, şadlığı didərgin salmış, növ-növ yeməklərin tamını itirmişdi.

Hər an həkimin və Səfurə xanımın nəzarəti altında olan Sədnik müəllim uşaqlarının, sevimli qadının ondan ötrü əzab çəkmələrinə dözmürdü:

- Səfurə, sən Allah mənə fikir vermə, uşaqları başına yığ, çayınızı için, çörəyinizi yeyin, mənə fikir verməyin. Xəstələnmişəm, sağalaram da. Səfurə ərinin yanında ağlayıb sızlamağını gizlədir, onun kefini açmağa çalışırdı:

-Sədnik, əzizim, al bu bircə qaşıq südü iç, uşaqların fikrini çəkmə, onlar yeyib içiblər. Bircə sənin sağalmağını gözləyirik. Qapıdakı qurbanlıq qoyunun boynu qaşınır, kəsilmək istəyir. Ə..... insafın olsun, bizə yazığın gəlsin, tez sağal.

Qızlar xəlvətcə göz yaşlarını qurulayır, özlərini halı azca düzələn atalarının yanına verir, qızdırmalı alnından öpür, hərəsi bir dillə onu xəstəliyin cəngindən qurtarmağa çalışırdı.

Balaca Sərvanə bacılarını yana itələyir, özünü atasının çarpayısına salır, öpə-öpə:

-Ata, istəyirsən sənə nağıl söyləyim?

Sədafət ona acıqlanır:

-Gəl bu yana ay qız, atanı incitmə.

Sahibə hər ikisini kənara çəkir, özü atasıyla baş-baş qalır, xəlvətcə qulağına pıçıldayır:

-Sənə qurban olum ata, sən xəstələnmə. Sən xəstələnəndə anam çox ağlayır. Heç kirimir.

Bu sözlər Sədnik müəllimin ürəyinə köz kimi basıldı. Onun canını almaq istəyən xəstəliyə lənət yağdırdı.

Səfurə xanım qızının atasına nələrisə çatdırdığını duyur, ona hirslənir:

-A kişi, uşaq-muşağın sözünə inanma, hamımız öz kefimizdə, işimizdəyik. Sənin sağalmağını gözləyirik. Qadan alım, bircə sağalaydın, -deyib özünü saxlaya bilmədi. İri ala gözləri doldu yanağı boy axdı.

-Allahdan əhdim budur, ay kişi, məni sənin qabağında öldürsün. Sədnik müəllimin bu kəlməni eşitməyə tabı yoxdu deyə əhvalı qarışdı, nəbzi sürətlə döyünməyə başladı. Həkim iynə-dərmanla onu güclə sakitləşdirdi. Oğlanlarının biri atasının başını, biri əlini, biri qıçını ovuşdurdular. Qızlar için-için ağlayır, Allaha dualar eləyirdilər ki, atalarına gələn qada-bəla onlara gəlsin.

Xəstənin halını yaxşılaşdıra bilmədilər.

Səfurə xanım ərinin ağır anlarında onun çarpayısını evin ortasına çəkdi. Dodağının altında "sənə

gələn dərd bəla mənə gəlsin" seyə-deyə çarpayının başına dolandı. Üçüncü dövrəni tamamlayanda Sədnik müəllim özünə gəlib ayıldı. İstəkli qadının nə elədiyini anlayıb yalvardı:

-Səfurə, səni and verirəm mənim canıma, belə etmə, qayıt dala, mən səni başına dolanım, sənə gələn qoy mənə gəlsin. Mən ölsəm sən uşaqları saxlayarsan. Niyə belə edirsən axı?

Səfurə onu sakitləşdirdi:

-Heç nə olmaz, Sədnik. Qoy sənə gələn mənə gəlsin. Bu anda ana-ata, uşaqlar hamısı ağladı, həkimin də gözləri yaşardı. Bu evin, bu ailənin sonsuz məhəbbətinə qibtə elədi.

Xəstəni Bkıya apardılar. Müalicəni orda davam elətdirdilər.

Həmişə ərköyün, rahat yorğan-döşəkdə yatan Səfurə xanım dincliyini itirmişdi, ərinin çarpayısının yanında taxta çarpayıda yatırdı. Bütün əzab-əziyyət ondan ötrü xoş idi, təki əri sağalsın.

Sədnik müəllimi sağaltmaq üçün tapılmayan iynə-dərmanlar əldə edilir, həkimlərin bircə buyruğu nəticəsiz qalmırdı, ağızdan çıxan axşama hazır olurdu. Xəstənin önü bəri idi. Yavaş-yavaş dirçəlirdi.

Bir dəfə Səfurə xanım yerindən duranda döşəməyə bur ətir şüşəsi düşdü, səsə Sədnik müəllim diksindi, ətir şüşəsini istədi:

-Ver görüm o hansı ətirdi elə, xəstəxanada da yanında saxlayırsan. Ay Səfurə, sağalım sənə ən yaxşı ətirlərdən alacağam.

Səfurə xanım istədi aralığa söz qatıb ərinin fikrini yozutsun. Ona görə dedi:

-Heç, elə belə, ay Sədnik, duranda yaxşısını alarsan.

Kişisi əl çəkmədi:

-Yox canım, sən o şüşəni ver baxım. Sən mənim ölmüşüm ver. Bax, mən yenicə sağalmışam, qoy yaşayım, ver ona baxım.

Qadın ha o yan, bu yan elədisə gördü olmur, axırda dedi:

-Sədnik, bu ətir deyil, zəhərdir. Vallah, əgər sənə bir şey olsaydı, bunu içib mən də öləcəkdim. Şükür Allaha, hər şey yaxşı qurtardı. Bunu da atarıq gedər.

Otaq Sədnikin başına fırlandı. Bilmədi ona nə cavab versin. Onu hansı xoş sözlərlə dindirsin ki, qadının istəyinin əvəzi olsun. Bu istəyin isə əvəzi yox idi.

## *Bir büküm halva*

İnanılmış pirləri, müqəddəs ocaqları Səfurə xanım daim ziyarət eləyər, nəzir-niyazlar verərdi. Qurbanlar kəsdirərdi. Onun ürəyi Allaha, Tanrıya inam, bəndələrə sevgiylə dolu idi.

Qonşu gəlinin uşağı olmurdu. Dərdi böyükdü. Səfurə xanım ona ürək-dirək verir, ana-bacı kimi qayğısına qalır, min bir dillə ovutmağa çalışırdı.

-Narahat olma, ay qızım, vallah o qədər uşağın olacaq ki, yığıb yığışdıra bilməyəcəksən.

İnamla deyilmiş bu sözlərə gəlin elə aludə olurdu, elə bil yan-yörəsinə əl uzatsa, illərlə gözlədiyi uşaqlarına çatardı.

Halva bişirib qohum-qonşuya payladırdı Səfurə xanım. Sədafət yuxaya bükülmüş dolu sinini götürüb çıxmaq istəyəndə gəlinlə qabaqlaşdı. Səfurə xanım sevinclə dedi:

-Halva götür, qızım, nəzirdi, ye. Ürəyimə damıb bu ay uşağın olacaq.

Gəlin körpə qundağına həsrət əlini siniyə uzadıb bir büküm halva götürdü.

-Allah qəbul eləsin- dedi.

Səfurə xanım gəlinin halvanı yeməyib saxladığını gördü.

-A bala, bunu ye, dedim, evinizin payını qızım aparıb, o sənin qismətindi. Oğuldan, qızdan nəyin olsa nəzir elə ki, sən də belə halva bişirib paylayacaqsan. Böyük ümidlə lap nağıllardakı kimi halvanı yeyən gəlin utana-utana dilləndi:

-Niyə bişirmirəm Səfurə bacı, təki evimdən körpə səsi gəlsin, mən də beləcə qohum-qonşuya paylayaram. Nə bilim, sənin dilin də, ayağın da yüngüldü, bəlkə mənə də düşəcək.

Səfurə xanım fərəhləndi:

-Bunu ki bilirsən ay gəlin, deməli Allah qoysa, nəzirin qəbul olarsa mənim sözlərimi yaddan çıxarmazsan.

Səfurə xanım dünyasını dəyişmişdi. Sədafət atası evinə gəlmişdi. Həmin qonşu gəlin onlara gəlmişdi. Onlar baş-başa verib xeyli ağlaşdılar. Gəlin bir balaca sarışın qız uşağını çağırdı.

-Gəl bura qızım, gəl xalanın yanına.

Sədafət uşağa diqqətlə baxdı. Gəlin gözünün yaşını sel kimi axıtdı:

-Sədafət, bax gör bu uşaq kimə oxşayır?

Sədafət uşağı öpdü. Baxıb-baxıb bir də öpdü.

-Bu ki, mənim gözəl anama oxşayır.

Gəlinin də üzü güldü:

-Hə, Sədafət, elə bilirəm bu uşağın göydə Allah, yerdə də Səfurə bacı verib mənə, həmişə ona baxanda anan yadıma düşür. O, məndən getdi. Mənim dar, ağır günlərimdə dərdimə şərik olub, rəhmətlik. Dediyi kimi də o vaxt, o halvadan sonra bu qız dünyaya gəldi. Elə bil ananı ağzı fal imiş.

Hər ikisi yenidən ağlaşdılar. Qız hıçqırırdı. Gəlin göz yaşlarını saxlaya bilmirdi.

-Sədafət, anan təkcə sizin ananız deyildi. O küçədə hamımızın anası idi.

## *Yevlaxdan bura*

Səfurə xanımdan fərqli Sədnik müəllim uşaqlarına məhəbbətini diliynən, öpüşləriylə, sığal-tumarıynan, onların hər bir arzusunun mümkün qədər yerinə yetirilməsi ilə bildirirdi. Hara getsə, hansı şəhərə, hansı rayona səyahətə çıxsa, ata əli boş gəlmir, uşaqlara, qadınına pay-püş alırdı. O, qapısından içəri girəndə uşaqları çağırırdı:

-Tez olun, soyunun, təzə paltarlarınızı geyinin görün sizə necə yaraşır deyib, pal-paltarları töküşdürü, hərəni bir hədiyyə ilə sevindirirdi. Uşaqlar bunu o qədər adət eləmişdilər, hər dəfə ataları uzaq yerdən gələndə soyunub əynindəkiləri tökürdülər.

Səfurə xanım buna hirslənirdi:

-Ay qoca, bir içəri gəl dincəl, arxayın, rahat olandan sonra, aç göstər görək, kimə nə almısan, kimə nə gətirmisən ki?

Kişi zarafata salır, qılığa keçirdi:

-Baş üstə hökmdarım, əmriniz qəbul olundu. Hələ b koftanı gey görüm, sənə necə yaraşır. Qadının hirsi soyuyur, gülməyi tuturdu:

-Ayrı qocasan, ha...... dedi.

Təzə koftanı geyən Səfurə xanım güzgünün qabağına keçdi.

Sədnik müəllim dilləndi:

-Sən lap dünya gözəlisən, canım mənim. Səfurə xanım nazlandı:-Yalnız sənə görə!

Sədnik müəllim xaricdən gəlmişdi. Evdə hamıya pay almışdı. Səfurə xanım yox idi. Çamadanlar açıldı, paylar paylanıldı. Sevinənlər sevindi. Bir azdan anaları gəldi, yoldaşının gəlişinə sevindi, öpüşdülər, görüşdülər, hal-əhval tutdular. Bir-birlərindən illər ayrısı kimi xəbərdar oldular. Sədnik müəllim qadını üçün ayırdığı çamadanı göstərdi:

-Bunlar sənindi, özün necə istəyirsən, elə elə.

Səfurə xanım bərkdən qəh-qəh çəkdi, uğundu. Hamı ona baxıb gülür, ancaq nəyə güldüklərini aydınlaşdıra bilmirdilər. Beləcə xoş gülüşdən sonra anaları dedi:

-Ay Sədnik, doğrusu mən sənin hövsələnə heyran qalmışam. Ə, bu qədər hövsələni hardan almısan belə? Səbr yiyəsisən, vallah. Sədnik müəllim başa düşmədi.

-Ay uşaqlar, ananızda iş var, görək nəyi necə deyəcək.

Qadın yenidən gözü yaşarına qədər güldü.

-Ay evi tikilmişin oğlu, mən məəttəl qalmışam ki, Yevlaxdan bəri necə gəlib çıxa bilibsən? Bu qədər yolu ki, çamadanları açmayıbsan, evə salamat gətiribsən, deməli böyük hövsələ sahibisən də.... Düz demirəm?

Ataları və uşaqlar məsələnin nə yerdə olduğunu anladılar.

Onlar evin qadınını gözləməyib çamadanları açmışdılar. Səfurə xanım təklikdə əri ilə danışırdı.

-Qoca, Allah səni bizə çox görməsin. Sən həm yaxşı ata, həm yaxşı yoldaşsan, ancaq, hövsələsizsən.

Bax, o uşaqlara aldığın paltarları yerli-yerində bölərdim. Axı, sən bilmirsən hansı uşağa daha çox nə lazımdı. Əlinə keçəni veribsən, bəzisinə heç lazım olmayan pay düşüb. Eybi yoxdu, birdə belə olanda məni gözlə, qoy özüm bilim kimə nə verirəm.

Sədnik müəllim qadınının ağıllı təklifinin qabağında ancaq şirin sözlər söylədi:

-Aykam, Qakkam, Gözəlim, Sarı mələyim, düz deyirsən vallah, mən də qəribə adamam ey, özümlə bacarıram ki.....-sən demiş, lap Yevlaxdan o yana ürəyim darıxmağa başlayır. Yox, gərək bu adətimi tərgitəm.

Qadın ərinin ürəyinin yumşaq olduğunu bildiyindən əlavə elədi:

-Sədnik, birdən xətrinə dəyər. Sən Allah incimə, sözdü də deyirəm. Eləsən də sağ ol , eləməsən də.

Onlar ikisi də bir-birləri üçün yaranmış, bir-birlərini gözəl anlayır, duyurdular.

## *Makinaçı*

Evin böyüyü, ilki Səyyaf Daşkəsən rayonunda işləyirdi. İşindən yuxarı təşkilatlara tənqid yazmışdılar. Bununla əlaqəli Bakıdan komissiya gəlmişdi. Komissiyanın sədri gözəl uşaq şairi Teymur Elçin (Əliyev) idi. Bütün işlər yoxlandı, tənqidin əsassız olduğu məlum edildi. Teymur Elçin komissiyanın işinin nəticələrini yazdırmaq üçün makinaçı yeri soruşdu. Sədnik müəllim onu öz evinə dəvət etdi. Burada da Teymur Elçin yenə makinaçı lazım olduğunu bildirdi. Süfrənin hazırlanmasıyla məşğul olan Səfurə xanım maraqlandı:

-Teymur müəllim, o yazı on vərəqə qədər olarmı?

Şair dedi:

-Yox, xanım, az olar.

Səfurə xanım əlindəki işləri qızlarına tapşırıb yazını istədi:

-Zəhmət olmasa verin, mən yazım.

Teymur Elçin təəccübləndi:

-Siz, yazmaq istəyirsiniz, elə indi?

Qadın gülümsündü:

-Bəli, elə indi yazaram mən.

Teymur Elçin yazıları inamsızlıqla qadına verdi. Onlar çay-çörəklərini yeyib qurtaranadək makinadan çıxmış vərəqlər hazır idi. Komissiya üzvləri Bakıya aparılacaq kağızların səhvsiz, təmiz yazılmasına inanmırdılar. Ona görə də kağızlara ürəksiz nəzər yetirdilər və püxtə makinaçının barmaqlarından

tökülən yazılı vərəqləri gördlər, oxuyub heç bir səhv tapmayıb heyran qaldılar:

- Belə savadlı makinaçı hər yerdə olmur dedilər. Bakıdan gələn komissiya üzvləri bu evdən, bu ailədən razı getdilər.

## *Baldız*

Böyük gəlini Gültəkinlə Səfurə xanım dil bir-sirr bir idilər. Çox yerə çüt geyinər, çüt gedərdilər. Gəlin Səyyafın icazəsini alıb bir yerə gedə bilməyəndə qaynanasına yol tapır, onu işdən agah eləyərdi. Qaynanası isə elə qururdu ki, guya bu yerə özü getməlidi, ancaq təklikdən gəlini də özünə qoşmaq istəyir, deməli belə lazımdı.

Anasının sözü ailə üzvlərinin hamısının gözü üstə idi. Səyyaf daha nə deyə bilərdi, o işi ki, anası istəyir, ona etiraz etmək olmazdı.

Gültəkin ikinci uşağı dünyaya gətirmək üçün xəstəxanaya aparmışdılar. Həkimlər bilirdilər ki, uşaq yarımçıq olacaq. Bu sözü Səfurə xanım həyətdə oturanlara çatdırdı:

-Gültəkinin qızı olacaq, özü də yarımçıq.

Bunu eşidən Səyyaf özündən çıxır:

-Nə qız, qızı olan ata gərək ölsün, yaşamasın. Mən qız istəmirəm.

Səfurə xanım gəlinin anasının, bacısının, yeznəsinin yanında oğlunun belə danışığından incidi.

-Hə, Səyyaf, qızın olacaq, özü də yarımçıq.

Gültəkinin bacısının iki qızı vardı. Onların yanında qıza qarşı belə ciddi etiraz anasının xoşuna gəlməmişdi. Səyyaf durub dincəlmirdi:

-Həkimlərə deyəcəm iynə vurub öldürsünlər. Xəbər gəldi, uşaq oldu yarımçıqdı.

Körpəni təcridxanada saxlayırdılar. Səfurə xanım oğluyla həkimin qəbuluna girdi. Onunla danışdı, uşağın, gəlininin əhvalından xəbər tutdu. İşlərin hələlik qaydasında olduğunu öyrəndi, sevindi. Səyyaf həkimə də fikrini çatdırdı:

-Həkim, uşaq yarımçıqdısa, birşikəstliyi varsa bəri başdan iynə vurun ölsün. Onun bütün danışıqları yenə Səfurə xanımın xoşuna gəlmədi. Onu bir kənara çəkdi, öyüd nəsihət verdi:

-Ay oğul, ayıbdı, həkim neyləsin, o, uşaq öldürəndi? Qismət olar, olar. Uşaqdı, Allah verən paydı, canın sağ olsun, yenə olar. Sən danışığına fikir ver. Hər ürəyindən keçənləri dilində demə. Oğlu başını aşağı salır. Daha həkimə heç nə demir. Həkim də onları inandırır:

-Mən əlimdən gələni edəcəyəm, uşağın da, xəstənin də halı yaxşılaşsın. Siz arxayın olun. Ana-bala çıxır gedirlər.

Həkim gəlinin yanına girir, onu yoxlayır, söhbət arasında deyir:

-Gültəkin, baldızın yaxşı gəlindi, xoşuma gəldi. Ərin yaman hirslidi ha... Elə mənə deyirdi ki, uşağı öldür. Mən uşaq öldürənəm? Baldızın onu

sakitləşdirdi. Hələ canı ağrılardan azad olmamış gəlin ha fikirləşdi, onun hansı baldızı xəstəxanada olub, yadına sala bilmədi, dedi:

-Lətifə xanım, mənim baldızım burada olmayıb, siz kimi deyirsiniz? Həkim Lətifə təəccübləndi:

-Yoldaşınla içəri keçmişdi. Bir gözəl, qəşəng, sarıyanız gəlin idi. Saçları arxasına tökülmüşdü, ala gözləri var idi. Gültəkin bütün ağrılarını unutdu. Fərəhlə həkimə bildirdi:

-O mənim qaynanamdı, Lətifə xanım, baldızım deyil. Həkim heyrətləndi:

-Belə də cavan qaynana olar? Mən heç inanmazdım.

Həmişə qaynanası ilə fəxr eyləyən, onu özünün ən əzizi, doğması sayan Gültəkin burda da Səfurə xanımdan ürək dolusu danışdı.

## *Sədnik müəllim tələsir*

Dar hövsələ Sədnik müəllim tələsik içəri girdi. Gəlin- qaynana mətbəxdə uşaqlara yemək verirdilər. Kişi oturmamış dedi:

-Ayka, tələsirəm, bircə dəqiqə vaxtım yoxdu. Tez mənə çörək ver, gedirəm.

Qadın ərini sakitləşdirdi:

-Bir ayağını soyun, əyləş. İndi xörəyi çəkirəm. Sədnik lap ciddiləşdi:

-Yox-yox, qətiyyən vaxtım yoxdu, getməliyəm, elə ayaq üstü yeyib çıxıram.

Gültəkin qaynatasının hövsələsini yatırtmaq istədi:

-Sədnik müəllim, uşaqlar yeyib qurtarır, bu dəqiqə də sən arxayın oturub yeyərsən. Qaynata onun da sözünü eşitmədi:

-Əşi, bir tikə nə verirsən ver, ayaüstü yeyib çıxıram, yoxsa heç yeməyəcəm.

Səfurə xanım ərinin xasiyyətini bildiyindən tez xörək çəkdi. Kişi yeməyə yenicə əlini uzadırdı ki, nəvələrdən biri içəri girdi:

-Ay nənə, qapıda arvadlar var səni çağırırlar, elçiyə oxşayır dedi. Gültəkin qaynanasından cəld tərpəndi:

-Siz gözləyin, mən onları yuxarı evə aparım. Gəlin çıxdı. Gələnləri şirin dillə, gülərüzlə qarşıladı. Mətbəxə keçdi. Qayınata, qaynana sual dolu nəzərlərini gəlinin üzünə dikdilər. Gəlin qaynanasına baxdı:

-Bacı, sən qonaqların yanına çıx, mən buraları rahatlayaram. Sədnik müəllim soruşdu:

-Gələnlər kimdi, a bala? Gəlin işindən ayrılmadı.

-Tanımadım Sədnik müəllim. O, işinin dalınca oldu. Sədnik müəllim ayaqqabılarını soyundu. Rahatca divanda əyləşib aşağı-yuxarı şütüyən qonaqlara çay, mürəbbə daşıyan gəlininin ona nə vaxt əsaslı söz deməsini gözlədi. Gizlincə qayınatasının hərəkətlərini izləyən gəlin gördü ki, bayaqdan tələsən. Ayaqüstə çörəyini yeyən, indi arxayın-arxayın oturub söz gözləyir. Gəlin öz-özünə gülümsünüb fikirləşdi:

-Mən də sənə gələnlərin kim olduğunu deməyəcəm. Görüm bayaqdan niyə tələsirdin.

Gələnlər getdilər. Onlar Sərvanəyə elçi düş-müşdülər. Səfurə xanım tanıyıb bildiyindən cavablarını qısaca vermiş yola salmışdı. Gəlin qaynanasına xəbər verdi:

-Bacı, ərindən xəbərin var? Bayaqdan tələsən kişin divanda əyləşib məndən söz gözləyir. Sən Allah, bu qadınların nəyə gəldiyini hələlik ona bildirmə. Gültəkinin sözünə qaynanası bərkdən güldü, and içdi:

-Demərəm a ..... Sərvanın canı demərəm. Bəs bayaqdan tələsən, ayaqüstü çörək yeyən doğrudan niyə yolundan qaldı?

Gəlin:

- Get, özündən soruş, dedi.

Aşağıda hövsələsi daralan Sədnik müəllim yuxarı çıxdı:

-Ayka, qonaqlar kim idi, nəyə gəlmişdilər?

Qadın ciddiləşdi:

-Heç elə-belə. Mənimlə işləri varıydı. Sənə aid deyil, a qoca, bayaqdan tələsirdin, bu qədər ləngidin. Gəlinin xısın-xısın gülməyindən qayınata başa düşdü ki, şətəl ondan keçib:

-Ayka, canım, gözüm, axı məni başa salmadın bunlar nəyə gəlmişdi? Səfurə xanım özünü işlə məşğul kimi göstərir, gülməyini güclə saxlayırdı.

-A kişi dur işinin dalınca get. Arvadların işinə qarışma. Sədnikmüəllim əl çəkmədi.

-İşim-zadım yoxdu, sən Allah, de bilim, o qadınlar nəyə  gəlmişdi. Gəlin bayıra çıxdı qayınatasının sözləri qulaqlarına çatdı.

-Qadan alım Ayka bu gəlin evimizi dağıdacaq sən ona qoşulma. Bilirəm o səni  öyrədib mənə deməyəsən. Sən mənim ağıllı gözəlimsən. De, çıxım işimin dalınca gedim.

Qadın ərini, daha çox həvəsləndiyini görür, şakqanaq çəkib gülür. Sözünün üstündə bərk dayanır.

-Sən ki, tələsirdin yeməyə vaxtın  yoxuydu. Niyə bu qədər ləngidin? Gedərdin. Qayıdanda hər şeyi bilərdin də.

Kişi gəlinəhirslənir, bütün bu işlərin başında onun olduğunu deyirdi.

Gəlin, qaynana ilə birləşib ona sirr verməyəcəyinə arxayın olan, qonaqların hansı məqsədlə gəldiyinə marağı birə-beş artan Sədnik müəllim gedir.

Bir həftə evdən heç nə öyrənə bilmir. Sonra başqa adamlardan eşidir ki, flankəslər kiçik qızına elçi

gəlibmiş. O, flankəslər ki, ona bu evdə qız verilməyəcəkmiş. Kişi arvadına deyir.

-Məndən gizlətməyinizə baxmayın, öyrəndim gələnlər kimdi, nəyə gəlmişdi. Bunu niyə məndən gizlədirdiniz? Elə əvvəldən deyərdiniz bilərdim də. Səfurə xanım ərinin könlünü almağa çalışır:

- Lazımsız adamlar olduğu üçün demədim. Bildim ki, mənasız qonaqlardı. Bunu heç bilməsən yaxşıdı. Yoxsa, özün uşaq ha deyilsən. Səndən gizli nə sirrimiz olardı.

- Sən nə olsa mənimlə danış. Gəlinə o qədər də fikir vermə. Biz bir olmalıyıq. Ailəcə hamımız bir olmalıyıq.

Səfurə xanım onu arxayınlaşdırdı.

-Əlbəttə, mən səninləyəm, sən mənimləsən, hamımız birlikdəyik.

## Mən bir ağac

Evin kiçiyi Sərvanənin elçiləri çox olurdu. Hələlik birini seçib qızını nişanlamaq qərarına gəlmişdilər. Gələn elçilərin hərəsini bir dilnən, biryolnan dala qaytardılar.

Sədnik müəllimin yaxşı dostlarından biri də qıza elçi gəldi, oğluna istəyirdi qızı. Yaxşı söhbətdən, çaydan sonra söhbət açıldı "yox" sözünü eşidən kişi şikayətləndi:

-Ə... a Sədnik, bir neçə illərin dostuyuq, məgər bir-birimizi indimi tanıyırıq? "Yox" nədi ə... Mən bura qohum olmağa gəlmişəm, də evin kişisinindi, hər şeyi ailədə kişi həl edər. Sənin sözünün qabağında heç kəsin sözü olmaz. "Hə"ni ver. Allaha mübarək eləsin deyək, çıxaq gedək.

Sədnik müəllim arvadına göz vurub əməlli-başdı rola girdi. Yazıq bir görkəm aldı:

-A başına dönüm, nə kişi-kişi salıbsan ey... Bax, o məhlədəki ağacları görürsən, elə təsəvvür et ki, mən də onlardan biriyəm. Mən kiməmki öz başıma qız verim?

Elçi eşitdiklərinə inanmaq istəmədi:

-Necə yəni kimsən, Sədnik müəllim. Sən qız atasısan, qızının da ixtiyarı səndədir.

Sədnik müəllim daha da fağırlaşdı:

-A qardaş, mənim payıma düşənləri ərə verib, evləndirib qurtarmışam, yerdə qalanlar Səfurə xanımındır. Onunla dil tap danış, mənim sizə veriləsi

qızım yoxdu, cavabını qəti alan elçinin əli, gəlini olmasını arzuladığı qızdan tamam üzüldü. Onlar çıxıb gedəndən sonra Səfurə xanım ərini gülə-gülə məzəmmətlədi:

-A kişi, bir məni başa sal görüm, nə vaxtdan ağac olubsan? Heç səndən də ağac olar? Ay, hay ağaca bax, bunun cavabına bax.

Sədnik müəllim fağırlıqdan çıxmışdı. Gülürdü:

-Arvad, belə eləməsəm onlar əl çəkəsi deyildilər. O, kişi mənimlə çörək kəsib, yoldaş olub, mən necə deyim ki, səndən xoşum gəlmir, qızımı vermirəm. Hazır belə adamların yanında "ağac olaram" . Sözümü sən desən dost, yoldaş arasında inciklik olmaz. Sədnik müəllimin bu sözü evdəkilərin xoşuna gəldi.

## *Daşla döyülən qapı*

Səfərə gedəndə Sədnik müəllim cəhd eləyirdi ki, evə tez qayıtsın. Gecənin hansı vədəsi olur, olsun adəti idi qapını döysün. İçəri keçəndə Səfurə xanımdan bu sözləri eşitsin:

-Ürəyimə dammışdı bu gecə evə gələcəksən. Ona görə yatmayıb səni gözlədim.

Kişi bu sözdən fərəhlənir, gec də olsa gəlməyinə sevinirdi.

Dünya aləm yatmış, qonum-qonşularda səs-səmir eşidilmirdi. Gecə saat üç idi. Sədnik müəllim qapıya çatanda əlinə daş götürüb tarak-tarak qapını döyür. Zəngi basmağı yadına da salmır. Elə tələsir, elə tələsirdi ki, elə bil ocağın üstdə yağ daşırdı. O, qapını daşla döyür. Bərkdən də "Sərvanə, Sərvanə" deyə çağırırdı.

Sərvanə səsə oyandı. Cəld xalatını çiyninə salıb "gəlirəm ata" dedi atasının səbri tükənmişdi:

-A qızım, bayaqdan qapını qırmırammı, bu nə vaxtın yatmağıdı, bə anan hanı? O da yatır? Pilləkənin başında gözləyən Səfurə xanım yoldaşının hay-küyünə, qəribə suallarına gülməkdən özünü saxlaya bilmir, o da qızını danlayır:

-Ay qızım, gecə saat üçdə yatmaq olar? Bu harda görünüb axı.

Sədnik müəllim, qadının səsini eşidəndə hirsi soyuyur, gözləri gülür, hay-həşirini bundan ötrü, yəni

xanımının onu qarşılamadığı üçün olduğunu duyurdu. Tez onunla görüşür, əhvallaşırdı:

-Necəsən...., yatmamışdın, eləmi? Bilirdim ki, yatmamısan.

-Səfurə xanım onun çayını, çörəyini rahatlaya-rahatlaya danışırdı:

-A Sədnik, sən mənim canım, xəbərin var ki, indi saat neçədi? Ə qapının zəngi yoxdu ki, tak-tarak salırsan? Qonum-qonşu eşidib narahat olur axı?

Sədnik müəllim gecənin hansı vədəsi olduğunu unudubmuş. Aradan bir az keçmədən o qızını çağırdı:

-Ay Sərvanə, harda qaldın, cəld dəftər gətir, yaz bu şeiri, bu dəqiqə yadımdan çıxacaq. Sərvanə qaçıb yerinə giribmiş. O, elə bilibmiş ki, anası atasının qulluğunda duracaq, daha ona ehtiyac olmayacaq.

Atası yenidən hirslənir:

-Bu qız, elə gərək indimi yataydı?

Anası qızını müdafiə eləyir:

-Bəs nə vaxt yatsın, yatmaq vaxtıdı də...

Kişi qızını yenə çağırır:

-Ay qızım, Sərvanə, gəl bu şeiricə köçür, sonra yatarsan.

Anası qızına qıymasa da o, yuxulu əlində dəftər-qələm gəldi. Atası dedi:

-Hə başla yaz. Qız bir misra yazdı yenə soruşdu:

-Ata bir də de, nə dedin?

Atası yenə təkrarladı. Qız əsnədi:

-Nə, necə?... Səfurə xanım gördü qızı yaza bilmir. Dedi:

-Əşi,  uşağı incitmə, nə qaça-qaçdı.

Sədnik müəllim uşaq kimi sevincək dilləndi:

-Ayka, bu şeiri sənə yolda yazmışam. Bu qədər tələsməyim ondan ötrüdür ki, yadımdan çıxmasın. Qadın bu şeiri ona yazıldığını bildi, oda ərinə tərəf durdu:

-Ay qızım, yaz də nə olub, yatmaq qaçmır ki?

Sərvanə heç nə yaza bilmədi. Anası qələm-dəftəri aldı, qızını yatmağa göndərdi, fərəhlə dedi:

-De gəlsin a kişi, özüm yazaram deyib şeiri köçürdü. Bu şeir onun yaman xoşuna gəldi. Bu qədər haray-həşirin boş olmadığını, ərinin onu necə istədiyini bir daha hiss elədi, qürrələndi.

## *Ölü yerində qəh-qəhə*

Səfurə xanım bircə dəfə gördüyü adamın hərəkətlərini, danışığını olduğu kimi yamsılamağı bacarırdı. O, elə yamsılayırdı, elə bil bunun məktəbini bitirmişdi. Onu tanıyanlar həmişə ehtiyatlı danışır, ehtiyatlı gülürdülər. Qorxurdular ki, burdan gedən kimi Səffurə xanım onları yamsılayıb evdəkiləri güldürəcək.

Gəlini gülmək üçün hərdən deyirdi:

-Ay bacı, sən Allah, düzünü de, məni necə yamsılayırsan, bir göstər, baxım.

Qaynanası zarafata salırdı:

-Səni yox, qoy başqasını yamsılayım.

O dili şirin  bir arvadı xeyli yamsıladı. Evdəkiləri gözləri yaşaranadək güldürdü.

Gültəkin o qadını tanımırdı. Ancaq o da gülməkdən özünü saxlaya bilmirdi.

Bir dəfə onlara qonaq gəlmişdi. O gedən kimi Sədnik müəllim də istədi onu yamsılasın. Ancaq bacarmadı. Evdəkilərin qonağa yox, atalarına gülməyi tutdu. O, elə qəribə, elə gülməli vəziyyətə düşürdü ki, axırda Səfurə xanım onu sakitləşdirirdi:

-Qoca, bu iş hər adamın hünəri deyil. Sən o kişini yamsılayıb bizi güldürmək istəyirsən, ancaq biz, o kişiyə yox, sənə gülürük. Adamı belə yamsılayarlar deyib, bircə dəfə gördüyü qonağı olduğu kimi yamsıladı.

Evdəkilər bu dəfə qonağın danışığına "uğundular".

Gültəkin ölü yerinə getmişdi.

Birdən qadınların içində birini gözü aldı. Qadın ağzını açıb danışanda gəlin özünü unudub bərkdən qəh-qəhə çəkdi. Ölü yerində qəfil qəh-qəhəyə təəccübləndilər. Gəlin ağzına yaylıq tutub başını gizlətdi. Onun, səsini eşitdiyi qaynanasının yamsıladığı dili şirin qadındı. Özünü birtəhər toxdayıb yanındakılardan soruşdu:

-O, qadının adı filankəsdir mi?

Yanındakı dedi:

-Hə, nə olub, gülməyin tutdu, ay Gültəkin, deyəsən, yadına nə isə düşdü, qaynanan kimi kefindən qalmırsan ha.....

Gültəkin xəlvətcə qaynanasının o qadını olduğu kimi yamsıladığını, onu da indi burda gördüyünü danışdı. Yanındakı da Səfurə xanıma yaxşı bələd olduğundan gəlinin gülməyinin yersiz olmadığı bildi, onun da gülməyi tutdu.

## *Beş dənə qoca*

Sədnik müəllim tez-tez səfərə çıxır, qayıdanda adətən əli dolu gəlirdi. Sərvan da o qədər öyrənmişdi ki, atası içəri girən kimi, çamadanları eşir özünə lazım olan pal-paltarları çıxarıb geyirdi. Atası bir dəfə yenə çoxlu pal-paltar aldı. Sərvan özünü başdan-ayağa bəzədi. Heç bilmədi ki, atasına necə təşəkkür eləsin, belə dedi:

-Ana, kaş qocadan beş dənə olaydı. Anasının gülməyi tutdu:

-A bala, beş dənə qocanın sənə nə xeyri, onların da özlərinin başqa Sərvanları olacaq, pal-paltarları da onlara alacaqdı. Sərvan burasını düşünməmişdi.

## *Calaq*

Sədnik müəllimgilin həyətinə girəndə sağ tərəfdə- qonşuda armud ağacı vardı. Yazbaşı ağac çiçəkləyəndə onların məhləsini gözəl ətir bürüyürdü. Səfurə xanım da bu armud ağacını çox xoşlayırdı. Armud ağacının sahibi siqaret çəkən, ağızdan avara bir qadın idi. Bu qadından Səfurə xanımın xoşu gəlmirdi.

Bir dəfə Sədnik müəllim həmin armuddan çilik gətirib öz məhləsində calatdırmaq fikrinə düşdü. Bunu bilən Səfurə xanım üz-gözünü turşutdu:

-Sən Allah, ay qoca, onu rədd elə, o üzə. O, qadının məhləsindən gələn armud qızıl olsa belə

istəmirəm. Mən onu yeyəndə arvadın siqareti duracaq gözümün qabağında, söyüşləri yadıma düşəcək. Daha onu yeyə bilməyəcəmki.... Beləliklə o gözəl armuddan calaq gətirilmədi.

## *Uzaqlardan gələn səs*

Sədnik müəllim Almaata səfərində çox gərgin işləyirdi. Onun boş vaxtı heç olmurdu. Bir-birinin ardınca gələn mühazirələr, çıxışlar, görüşlər başını elə qatmışdı, istəkli Səfurəsi belə yadına düşmürdü. Dan yeri ağaranadək dincəlmək istəyirdi. Bir dəfə yuxulu-yuxulu ürəyi atdandı sanki. Səfurə xanımın səsindən diksindi. Qadın astaca bayatı çəkdi:

Mən aşıqəm, göynədi?
Mən aşiqəm göy nədi?
Yaşıl nədi, göy nədi
Çəkdim yarın həsrətin,
Duydum yarın səsini,
Allah, qəlbimgöynədi.
Allah qəlbim göynədi.

Sədnik müəllim qulaqlarına inanmırdı. O, bu səsi, bu bayatını eşitmişdi, yaddaşına həkk olunmuşdu. Varlığını titrədən bu həzin səsin sahibi ondan çox-çox uzaqlarda, Gəncədə idi. O, Tanrıdan qanad arzuladı, bu andaca Səfurə xanıma çatmaq, onun çəkdiyi

bayatıya cavab vermək istəyi, bütün arzularını üstələdi. Ürəyi az qala partlayırdı Sədnik müəllimin. Tez aşağı düşüb evini sifariş verdi. Eşqi, məhəbbəti yenicə dil açan cavan kişi kimi ürəyi çırpına-çırpına gözlədi. Könül, qəlb dostunun uzaqdan eşidilən "bəli" kəlməsinə professor sevincdən axan göz yaşlarını köksündən qopan "can" kəlməsinə hopdurdu və bayaq qeybdən eşitdiyi xanımının bayatısına bayatıyla cavab verdi. Səfurə xanım da çaşdı. Allahın möcüzəsiylə üzləşirmiş kimi dilləndi:

-Sən necə eşitdin mənim bayatımı? Sən hardan eşitdin mənim səsimi? Bu bayatı necə çatdı sənə? Sədnik müəllim özünü ələ almışdı:

-Məgər mən ölmüşəm sənin səsini eşitməyim? Yaxşısanmı, ömrüm-günüm, uşaqlar necədi? Halədə bu sevincdən özünə gələ bilməyən qadının mehriban, isti sözləri telefon boy axıb Sədnik müəllimin köksünə doldu:

-Ay qoca, bizdən arxayın ol, hamımız yaxşıyıq, sən özünə bax, yeməyinə, içməyinə, istirahətinə fikir ver, qadan alım. Bir-birindən çox uzaqlarda olan iki qəlb, iki könül qovuşdu, şadlandı, rahatlandı.

***20 may, 1996-cı il.***

## *Onun Sədnik kimi dədəsi yoxdur*

Sədnik müəllimin istəkli həyat yoldaşı, dostu, sirdaşı Səfurə xanım çox əliaçıq, səxavətli, ürəyi, qəlbi təmiz, saf bir xanım idi. O, öz ağlı, dərrakəsi, qabiliyyəti ilə tanıyanları heyran edirdi. Məqamında olduqca hazırcavab, sözü üzə deyən, yalandan, riyandan uzaq olan bu xanım şeirə, sənətə, sənətkara böyük qiymət verirdi.

Saz-söz vurğunu, folklorşünas alim, istedadlı pedeqoq, şair və jurnalist Sədnik Paşanın evindən qonaq-qara əskin olmazdı. Səfurə xanım gələnləri layiqincə yola salmağı yaxşı bilirdi.

Gözəl səsli cavan müğənni Lütfiyyə xanım bu mehriban ailənin qonağı olanda, Sədnik müəllim uzaq səfərdən yenicə qayıtmışdı. Professor hansı şəhərə, rayona gedirdisə oğul və qızlarına, həyat yoldaşına pal-paltar alır, onları sevindirməyi özünə borc hesab edirdi. Lütfiyyə o qədər gözəl mahnılar oxudu ki, Səfurə xanım atasının qızına təzəcə aldığı bahalı və yaraşıqlı donunu ona bağışladı. Kasıb və yetim qız Lütfiyyənin sevinci aşıb daşdı, hədiyyənin çox qiymətli olması onu çaşdırdı, özünü itirəndə Səfurə xanım gülə-gülə dedi:

-Mübarək olsun, ay qızım, sağlıqla geyin, görək sənə necə yaraşır?

Qız sevincək o biri otağa keçib donu əyninə taxdı. Don qıza elə qəşəng durdu ki, hamı ona heyranlıqla

baxıb, çox gözəldir, söylədilər. Qız ev sahiblərinə dönə-dönə minnətdarlıq edib getdi.

Pəncərədən baxan Səfurə xanım Lütfiyyə ilə bir oğlanın sevinə-sevinə uzaqlaşdıqlarını nəzərindən yayındırmadı. Sədnik müəllim qızın nişanlısı olduğunu söyləyib dedi:

-Ayka, (o, Səfurə xanımı belə əzizləyirdi) hələ bir mənə de görüm, qızıma aldığım o bahalı donu niyə Lütfiyyəyə bağışladın. Axı o mənim qızıma da beləcə gözəl yaraşardı. Biz ona başqa hədiyyə verərdik. Səfurə xanım ərini mehriban və şəfqətli nəzərlərlə süzüb: o qızın Sədnik kimi dədəsi yoxdur, ay vəzir, (qadın ərini belə əzizləyirdi) dedi. Ona belə donu kim alacaq, hansı pulla alacaq? O yetim qızdır, qoy geyinib sevinsin, xoşbəxt olsun, sən qızına başqasını alarsan. Sədnik müəllim arvadının ağıllı və alicənablığını bir daha yəqinləşdirdi.

## *Çəngəldən asılan pullar*

Səhərin gözü açılar-açılmaz evdə hamı yuxudan oyanır. Pətəkdə arı ailəsi kimi qaynaşırdı. Böyükdən kiçiyədək hər kəsin işi özünə dəqiq məlum idi. Sədnik müəllimlə Səfurə xanım günün ilk xeyir duasını balalarının dilindən eşitməyə alışmışdılar. Altı uşağın hər biri ayrılıqda gah Səfurə xanımı öpür:-Sabahın xeyir, Ayka, Sədnik müəllimə baş əyir:- Sabahın xeyir Qoca, deyir, kimi süfrə hazırlayır, kimi əyin-başını nizama salır, kimi də dərslərini təkrarlayırdı. Stolun üstünə səhər yeməyi eyni vaxtda başladığı kimi eyni vaxtda da sona çatırdı.

Bu gün yenə düzülmüş üç dənə manatlıq, üç dənə onluq sahiblərini gözləyirdi. Kiçiklərin hərəsi manatlığı çantasına atdı. Manatlıqlar Sevincin , kitab-dəftərlərinin arasına yer elədilər. Onluqlar uşaqların əl havasına tərpəndilər, tez də yerlərində rhatlandılar. İnstituta gedənlər evdən orta məktəbə gedənlərdən bir az sonra çıxacaqdılar. Onların geyinib bəzənmələri kiçiklərə nisbətən daha uzun çəkirdi. Üst-başlarını nizama salıb hazır olan uşaqlardan ikisi onluqlarını dinməzcə ciblərində xışıldadırdı. Səyyaf stolun üstündəki tək qalan onluğa hirslə baxdı:

-Buna nə düşür ey...On manat da puldu?

Bu sözləri eşidən onluğun qulağı gicildədi, utandı. Əlacı olsaydı qalxıb tavana yapışardı, qalın döşəməni deşib yerə girərdi ki, oğlanın gözünə görünməsin. Pul öz acizliyindən, gücsüzlüyündən çox xəcalət çəkdi.

Səyyaf pulu götürmürdü. Pul sıxılır, əzizilirdi. Atanın pula yazığı gəldi. Əlini cibinə saldı ki, tək qalan onluğa bir neçə əlavə pul qoşsun, onu qüvvətləndirsin, ürəkləndirsin. Ərinin qırılmasını sezən Səfurə yenicə sevinmək istəyən tək qalan onluğun ürəyini üzdü.

-Üşağı pis öyrətmə. Bəsidi. Əlavəsini mən də verə bilərəm. Lazım deyil. Artıq xərcdi. Gözünə qaranlıq çökmüş onluğu Səyyaf hirsli-hirsli cəld qapıb cibində əzişdirdi. Pulun az qala nəfəsi kəsiləcəkdi. Acıqlı barmaqlardan canını güclə qurtarmış onluq cibin qaranlıq birküncündəcə büzüşüb durdu.

Səyyaf çəngələ yaxınlaşdı. Papağını başına qoydu, paltosunu götürəndə bir qırmızı onluğun çəngəldən asılıb sevinclə, yellənə-yellənə ona baxdığını gördü. Anası uzaqdaydı. Oğlunun və pulun şadlığını duya bilməzdi. Bu onluq da Səyyafın cibində o biri onluğun yanında özünə yer elədi. Bayaqki büzüşüb qalan onluğun ürəyinə təpər, canına qüvvət, gözünə işıq gəldi.

Onluqların və oğlunun sevincindən atanın ürəyinə böyük pay düşdü. Bu payı bütün övladlarından qəbul eləmək fikrinə gəldi.

Səfurə xanım tərəfindən yan-yana düzülən manatlıqların, onluqların kefi kök idi. Elə əvvəllər dəmanatlıqlar sahiblərindən utanıb çəkinmirdilər, indi də çəngəldən asılan pullar şərflərin, papaqların dal tərəfində gizlənir, bic-bic biri-birlərinə göz vura-vura soxulur, oxumağa yollanır, üçüncü, dördüncü

tənəffüsdə şirniyə, qoğala, dəyişdirilir, özlərindən başqa neçə-neçə uşağın  qarnını doyuzdurur, ağızlarını şirin eləyirdilər. Çəngəldən asılan onluqlar Səfurə xanımın səsini eşidəndə qorxudan əsim-əsim əsirdilər. Onlar papağın, paltonun altında təşvişlə, həyəcanla sahiblərini gözləyir, rahat, arxayın ciblərdə əyləşən onluqlara qovuşmağı böyük səadət sayırdılar.

Bir dəfə Səyyafın çəngəldə asılan  onluğu yadından çıxdı. Paltosunu geydi, pulun necə həşir-qiyamət qoparmağının, çığır-bağır salmağını eşitmədi. Fikri özündə idi.  Təzəcə sevdiyi qızın yanına uçmuşdu. Pul çəngəldə üstü açıq qalmışdı.Gizlənməyə yeri yoxdu. İndi onu elə bil həmişəki kimi sevinclə çəngəldən yox, qəzəblə dar ağacından asmışdılar. Dhşətlə boğulub öləcəyi günü gözləyirdi. Bütün varlığıyla Allaha yalavarırdı ki, Səyyaf bu tərəfə dönsün, onu görsün  götürsün.... Oğlanın isə baxmağa, pulu götürməyə nə vaxtı, nə həvəsi vardı. Xudahafiləşib evdən çıxdı.

Onluğun ümidi kəsildi. Yazıq-yazıq arxasınca boylandı.

Səfurə xanım çəngəlin yanında hərlənirdi. Qəfildən gözü çəngəldən asılan onluğa sataşdı. Neçə vaxtda bəri onun yan-yana düzdüyü pulları, uşaqların gülüşə-gülüşə götürdüklərini, Səyyafın öz onluğunu daha təhqir etmədiyini beynindən keçirdi.

Bayaqdan qadınını diqqətindən kənarda qoymayan Sədnik müəllimin elə bil danışmağa sözü qurtarmışdı. Gah Səfurə xanıma, gah da canını tapşırmağa hazır

olan çəngəldəki onluğa baxırdı. Qadın şkafın süyürmələrindən birini irəli doğru çəkdi. Özündən getmiş çəngəldəki pulu dünyanın dərdini, qəmini vecinə almayan süyürmədəki bir qalaq pulun başına çırpdı:

-Vəzir, pulu çəngəldən ötürürsən? Niyə uşaqların tərbiyəsini pozursan? Məgər mən onları səndən az istəyirəm? Bu sözü bir dəfə də demişəm. Uşaqlara mən də istədikləri qədər pul verə bilərəm. Axı bu nəyə lazımdı?

Sədnik müəllimin yuxa ürəyi kövrəldi, razılaşdı. Qadınını öpdü oxşadı, çəngəldən qoparılan onluq isə, qorxusuz, ürküsüz sürmədəki bir qalaq pulun qucağında özünə gəldi, rahat, arxayın dərindən nəfəs aldı.

# *Mən gözəlləşirəm*

Nazlı, ərköyün Sərvanə evin balacası, körpəsidi. Yerinə yetirilməsi mümkün olan-olmayan istəkləri bitib tükənməzdi. Tez-tez güzgünün qabağında dayanır, gah özünə, gah anasına baxardı. Özünün üzü-gözü xoşuna gəlmir, düşürdü anasının üstünə:

-Ana, mən sənə oxşamaq istəyirəm, ancaq sən gözəlsən.

O, anasını qucaqlayıb sığallayır, öpür, dil boğaza qoymurdu:

-Hələ bir özünə bax, gör necə də ağsan. Saçın da, gözün də, ağzın da, burnun da hamısı qəşəngdi. Axı mən sənin kimi gözəl deyiləm, çox çirkinəm.

Qızının sözlərinə ürəkdən gülən Səfurə xanım onu inandırmağa çalışırdı:

-Ay qızım, sən hamıdan gözəlsən, hamıdan qəşəngsən. Sən mənim ağıllı balamsan. Nə olub ey sənə? Boy-buxunun, gözün-qaşın,ağzın-burnun zərifdir, incədi. Bax, qızım, mən sənə deyirəm özünə lağ eləmə, sonra doğrudan çirkin olarsan ha, onda biz neyləyərik?

Sərvanə bu sözdən qorxuya düşür, daha anasına mən niyə gözəl deyiləm demirdi.

Çox keçmir yenə yadından çıxır, başlayır anasını tərifləməyə:

-Ay ana, mən evi sənin kimi süpürürəm, paltarı sənin kimi yuyuram, xörəyi sənin kimi bişirirəm, hamı deyir, Sərvanənin işi anasının işinə oxşayır, ancaq

özümü demirlər. Ana, bəlkə sənə oxşayıram, camaat qəsdən demir. İşləri sənin kimi görürəm, deməli özüm də sənə oxşayıram da, düzdür, ana?

Anası əlindəki ütünü qızına verir, qar kimi yuyulmuş, karton kimi qurumuş, ütülənmiş paltarları yerbəyer eyləyir:

-Gözəlim, nazlı qızım, yerdə qalan paltarları sən ütülə. Hər dəfə yaxşı bir iş görəndə bir az gözəlləşirsən, lap yaxşı işlər görəndə olacaqsan, dünya gözəli.

Qızın gözləri sevincdən parlayır, ütünü həvəslə paltarın üstündə o yan-bu yana sürütləyir, bircə xırda qırışın qalmasına imkan vermədən anasının işini davam etdirir. Paltarların üstündəki bircə gülün də ləçəyini bükülü qoymur, hamısını açırdı.

Bir dəfə Səfurə xanımla Sərvanə qonaqlığa hazırlaşırdı. Onlar ən yaxşı paltarlarını geyindilər. Ana bala güzgünün qabağına keçdilər. Ananın hazırlaşmağı tezcə başa çatdı. Sərvanə isə bəzənir, saçını gah o yana, gah bu yana ayırır, üzünü gözünü sığallayırdı. Səfurə xanımın səbri tükəndi. Dedi:

-Ay gözümün işığı, bir az tez hazırlaş, gedib qonaqlığın axırına çatacağıq.

Qəşəngcə bəzənmiş Sərvanə bir özünə, bir anasına baxdı, qaş-qabağını salladı:

-Ana, mən bayaqdan bəzənirəm, yenə gözəl deyiləm. Elə kifirəm ki, kifirəm. Deyəsən, sən lap çox bəzənibsən elə, ana? Mən az bəzəndim axı?

Anası qızını inandırmağa çalışdı:

-Başına dönüm, bəri gəl, gedək, vallah, üzümə bir ovuc sudan başqa heç nə vurmamışam. Sənin işin qiyamətdi ey... Növ-növ bəzək düzəyi üz-gözünə yaxırsan, məni də özünə tay eyləyirsən? Yox, a bala, mənim üzüm heç elə şeyləri götürməz. Sən bunları bilə-bilə yenə məni söylədirsən, ay dəli qızım.

Qız bərkdən gülüb uğundu:

-Dəli yox, ay ana, kifir qızın. Gözəl ananın kifir qızı. Hələ bir baxım, görüm, yanağına nə çəkmisən belə qızarıb, özün də deyirsən üzümə heç nə vurmamışam.

O, dəsmalını götürüb anasının yanağını silməyə başladı. Dümağ dəsmalın rəngi dəyişmədi. Səfurə xanım əlini əlinə vurub qəh-qəhə çəkdi:

-Ağlını özgəsinə vermə, a qızım, sənin ananın nəyi var özündəndir.

Sərvanə ciddiləşdi, elə bil birdən-birə böyüdü. Elə bil səhərdən ərköyünlük eləyən bu qız deyildi. Tez qaçıb evdən bir çimdik duz və üzərlik gətirdi. Anası donub qalmışdı, qızının nə eləmək fikrində olduğunu dəqiq bilmirdi. Qız duzu üzərliyi kağıza bükdü, bir qaba qoyub odladı. Tüstüsünü anasının üzünə üfürəndə qadın sonbeşiyinin fikrini duydu, sevindi, fərəhləndi. Bütün günü baş-beynini aparan, onunla gözəllik davası eləyən balasının nəzərində necə gözəl, necə qəşəng imiş.

Qadın əlini yelləyib: -Yaxşı, qadan alım, mənə dəyən göz partlasın, bala, mənim nəyimə göz dəyəcək?

Sərvanə gülümsünüb:

-Elə demə, ay gözəl anam, sən lap məleykəsən. Qorxuram sənə göz dəyər, qurban olum sənə, ay ana.

Onlar deyə-gülə qonaqlığa getdilər. Hələ Sərvanə-nin nəzərində anasından gözəl başqa kimsə yox idi. Çox vaxt ana-bala geyinir, bəzənir, cüt gəzirdilər.

Bir dəfə yolda tanışlardan biriylə rastlaşdılar. Görüşüb öpüşəndən sonra qadın dedi:

-Ay Səfurə, xanım, qızındı, qaşı, gözü qəşəngdi, bir az sənə oxşayır, Allah saxlasın.

Üzdə bildirməsə də ürəyində sevincindən qəşş eyləyən Sərvanə az qaldı, qadını yenidən öpsün. İlk dəfə idi Sərvanəni anasına oxşadırdılar. Qızın ürəyi sevinclə döyündü. Qadınla anasının nədən söhbət etdiklərinə qulaq asmadı, fikri, xəyalı anasına oxşayır, sözündə idi, bunu dönə-dönə eşitmək istəyirdi. Ona elə gəlirdi ki, yəqin gözəlləşir, yoxsa tanışları onu anasına oxşatmazdı, Axı, o, anasını hamıdan gözəl hesab eləyirdi. Sərvanə böyüsə də "anasına oxşayır" sözündən həmişə fərəhlənirdi.

# *Məni də aranızda gizlədin*

Şaqqataraq nartaxta oynayan Sərvanla Sərvanənin səs-küyü evi bürümüşdü.

Mətbəxdə biş-düşlə məşğul olan Səfurə xanım arada bir əlindəki işini yarımçıq qoyub, uşaqlarına təpinirdi:

-Çığır-bağırınız evi uçurur, ay uşaqlar, asta oynayın.

Sərvanə həmişə zər atanda istədiyi gəlməyəndə min cür cığallıq salır, Sərvanı mütləq yenirdi. Qardaşı bacısına dəfələrlə güzəştə gedirdisə yenə qız çığırır, dediyindən dönmürdü. Sərvanə uduzmaq istəmirdi, Sərvan isə ona məğlub olmurdu.

Səfurə xanım ikinci dəfə təpindi. Bu qadın sözünün divara, çılçırağa, şkafa, stola nəyəsə dəyib qayıtmağına adət etməyibdir. Onun sözü həmişə sahibinə çatıb. Nəticəsiz qalmayıbdır. Bu gün oyuna başları qarışan uşaqlar analarının sözünə o qədər də əhəmiyyət vermirdilər.

-Sözü mən kimə deyirəm? Durun, tez keçin yataq otağına. Mən icazə verməyincə yerinizdən tərpən-məyin. Oldu Sərvan, eşitdin Sərvanə-dedi. Elə mehr-məhəbbətlə elə ciddi, elə tərzdə dedi ki, uşaqlar cəld yataq otağına keçib  kirişdilər.

Ana hazırlaşıb harasa getdi. Bayaqdan bir-biriləri ilə dalaşan, dilləşən oğlu ilə qızı fağırlaşıb, quzuya döndülər. Sərvanə qardaşına pıçıldadı:

-Qaqaş, anam bizim oynumuzu yarımçıq saxladı. Əgər oynumuz yarımçıq qalmasaydı, mən səni udardım, heyif.  Eybi yoxdu sonra udaram, ancaq Sərvan,  atam gələndə bunu deyək. Qoy anamıza desin. O bizim oyunumuzu bir də pozmasın. Sərvan bacısına təəccüblə baxdı:

-Sən nə danışırsan, Sərvanə? Deyirsən atamıza şikayət eləyək?

Qız yenə yavaşca dilləndi:

-Hə Sərvan, qoy ana qorxub bir də bizi bu otağa salmasın.

Sərvanın bacısına bərk acığı tutdu:

-Mən heç vaxt anamdan şikayət etmərəm. Qoy o məni hər gün döysün, danlasın. Mənim anam hamıdan yaxşıdı. Sən heç utanmırsan, belə söz danışırsan?

Sərvanə inadından dönmədi:

-Qaqaş, mən də bilirəm, ana yaxşıdı. Neynim ey, o bizim oynumuzu pozdu. Sənə də qışqırdı də... Təkcə mənə qışqırmadı ki...Yox, mən atama deyəcəm. Qoy o da ona qışqırsın. Uşaqlar bir tərəfdə oturub gözlədilər. Bu vaxt ata otağa girdi. Uşaqların üz-gözündən öpdü. Sərvanə dil boğaza qoymadı:

-Ata, bilirsən nə olub? Sənin o gözəlin mənə də, qaqaşa da qışqırdı. Özümüzü də oynamağa qoymadı. Qızın dodaqları büzüldü, ağladı, üzünü atasının üzünə söykədi. Sərvan gülümsədi. Atasına göz vurdu:

-Mənə yox, ata, təkcə Sərvanəyə qışqırdı anam. Sərvanə atasını inandırmağa çalışdı:

-Yalan deyir ata, ikimizə də çığırdı. Özümüzü də oynamağa qoymadı. Ona de, ata, Sərvan, sənə qışqırmadı? Niyə düzünü demirsən? Qorxursan anadan?

Sədnik müəllim guya hirsləndi. O da oğluna göz vurub uşaqları sakitləşdirdi:

-Yaxşı, qızım, qoy anan gəlsin, gör onu necə danlayacağam. Onun mənim belə ağıllı, qəşəng balalarıma qışqırmağını göstərərəm. Hələ bir az dayanın, qoy bir gəlsin? Qoy bir gəlsin? Sən ağlama, qadan alım, kiri...

Qız sakitləşdi, sevindi. Səbirsizliklə analarının gəlişini gözlədilər.

Küçə qapısı açıldı. Səfurə xanım dikdaban ayaqqabılarını taqqıldada-taqqıldada əzəmətlə evə sarı gəlirdi. O pilləkənləri sürətlə qalxırdı. Uşaqlar yerlərindən tərpənmirdi. Sədnik müəllim qadınının bu yerişini çox xoşlayırdı. O evə yaxınlaşanda Sərvanə pəncərənin önünə gəldi ki, atasının anasını necə danladığını eşitsin. Bu zaman atası uşaqların yanına keçdi. Özünü ciddi saxlayıb guya qorxurmuş kimi yavaşca pıçıldadı:

- Uşaqlar, ananız bərk gəlir, ondan qorxuram, məni də aranızda gizlədin.

Bayaqdan bəri atasının anasını necə danlayacağını gözləyən Sərvanə bərkdən qəh-qəhə çəkdi. Səfurə xanım qızı tərəfindən ona qarşı hazırlanan “suiqəsdin” nəticəsini bir azdan eşitdi. Əlini əlinə vurub ləzzətlə güldü:

-Gəlin, çıxın, uşaqlar, sizi bağışladım, rahat oynayın, dalaşmayın. Sonra yavaşca qızının saçından çəkdi:

-Sən Vəzirlə mənim aramı vura bilməzsən. Bundan arxayın ol, düzdürmü, Vəzir?

Sədnik müəllim qürurla qadınını süzdü:

-Buyurduğun düzdür, hökmdarım-dedi. Onların bir-birlərinə baxıb ləzzətlə gülümsəməsini Sərvanə görüb elə fərəhləndi, elə sevindi ki, nə yaxşı atası onun üstündə anasına çığırmadı, danlamadı. Çünki qızın ata-anasına, oyun vaxtı cığallayıb dalaşdığı qardaşına məhəbbəti ürəyinin tutduğu boyda idi.

## *Ananın “mühafizəçisi”*

Sədnik müəllimin oğul övladlarının ikincisi Sabutaydı. Anası kimi zəhmətkeş, işgüzar oğlanın özünəməxsus qəribəlikləri çoxdu. Hələ körpəliyində atası bir dəfə onu üzütüklü öpmüşdü. Zərif üzünü atasının cod tükləri dalamışdı. Uşaq: - Ata qocadı deyə hirslənmişdi. O vaxtdan “Qoca” evin əziz, şirin kəlməsinə dönmüş, ata sözünün əvəzedicisi olmuşdu.

Ağlı kəsəndən Sabutay ata-anasının qulluğunda durmağı özünə fərəh bilmişdi. Anasının dilindən çıxan hər bir kəlmə, söz ondan ötrü qiymətli, hər bir arzusu müqəddəs idi. Səfurə xanım uzq-yaxın səfərlərə bu oğlu ilə gedir, bu oğlu ilə gəzmək ürəyinə yatırdı.

Çünki bu oğlu onu qoyub işinin dalınca getmirdi. Onu axıradək gözləyir, nazıyla oynayır, bircə istəyini boş buraxmırdı. Sabutayın nəzərində anasından gözəl, atasından böyük, bacı-qardaşlarından mehriban kimsə ola bilməzdi.

Ailənin qayda-qanununu daim yüksək səviyyədə saxlayan Səfurə xanım Sabutay üçün dost, yoldaş, qardaş idi. O, hər sirrini, sözünü anasıyla bölüşür, anasıyla məsləhətləşir, onun xeyir-duasını alırdı.

Sabutay Bakıda institutda oxuyurdu. Atası yanına gəlmişdi. Gəzdilər, dolandılar, axşam ayrılanda Sədnik müəllim onun uzaqda olduğunu nəzərə alıb 100 manat pul verdi. Oğlu təəccübləndi:

-Bu qədər pulu neynirəm, ata?

Atası ondan da bərk təəccübləndi:

-Necə, yəni neynirəm oğlum, xərclə də pul lazımın deyil? Cavan deyilsən? Qorxma, anan bilməyəcək.

Sabutay 100 manatın 10 manatını cibinə qoydu, qalanını atasına qaytardı. Atası pulu onun cibinə qoymağa çalışdı. Oğlu onu daha da heyrətləndirdi:

-Ata, bu pulu mənə vrsən Gəncəyə gələndə anama deyəcəm.

Sədnik müəllimin oğlunun bu sözünə gülməyi tutdu. Eyni zamanda Səfurə xanımın, uşağın tərbiyəsini pozma, söhbəti yadına düşdü. Qadını ona deyirdi:

-Səni başa düşürəm, özünün gəncliyində pul verənin olmayıb, heyfini uşaqlarından çıxmaq istəyirsən. Ancaq unutma, onlar artıq pulu xərcləmək üçün lazımsız işlərə qoşula bilərlər. Nə qədər lazım olsa o qədər pul ver. Sonralar Sabutay bunu danışanda Səfurə xanım onun üzündən-gözündən öpmüş, mənim ağıllı balamsan, demişdi.

Sabutay həftədə, on gündə bir anasının istəyi, atasının göstərişiylə onları Azərbaycanın müxtəlif rayonlarına, şəhərlərinə gəzməyə aparırdı.

Müqəddəs yerlərə getmək, pirləri, ocaqları ziyarət eləmək, inanılmış, sınanılmış yerlərdə qurbanlar kəsmək, nəzir, niyazlar vermək ailədə adət-ənənəyə dönmüşdü.

Səfurə xanım Üçbulağın sərin suyundan ləzzətlə içirdi. Bunu bildiyindən Sabutay onu isti yay axşamlarında hər gün bulağa aparır, sərin suyla qablarını doldurur, anası isə doyunca içir, əl-üzünü yuyurdu.

Sabutayı dostugil qonaq çağırmışdılar. Sabutay qonaqlığa lazım olan köməkliyi elədi. Evlərinə gəldi. Anası soruşdu:

-Qonaqlığa niyə qalmadın?

Oğlu heç bir söz tapmayıb:

-Həvəsim yoxdu, dedi, getmək istəyirəm. Burda sənin yanında oturub danışmaq, söhbət eləmək hər şeydən yaxşıdı.

Anası onu qonaqlığa güclə göndərdi. Sabutay ac idi. Fikirləşir ki, həm gedər yeyər, həm də anasının ürəyincə olar.

Dostugil onu gözləyirdi. Hamı ac olsa da, süfrəyə əl uzadılmamışdı. Sabutayın yenidən gəlişi onları sevindirdi. Badələr doldu. İlk sağlıq deyildi. Hamı içdi.

Sabutay səhərdən dilinə heç nə vrmasa da, elə bil birdən-birə yağ içmişə döndü. Ürəyi böyüdü, özünü piss hiss elədi. Bayaqdan onun gəlişini gözləyən dostları məəttəl qaldılar. Elə bildilər Sabutay özü qəsdlə belə eləyir. Oğlanın and-amanından sonra inandılar. O yemək istəyirdi, lakin tikəni uda bilmirdi. Özü də başa düşmədiyi pis hal keçirirdi.

Qonaqların onu bağışlamasını xahiş eləyən Sabutay birdən-birə halının dəyişməsinin səbəbini başa düşmürdü.

Bu vəziyyət azmı-çoxmu çəkdi, qəfil xəbər hamını sarsıtdı. Sabutaya məlum oldu ki, anasının elə bu anlarda beyninə qan sızıbmış.

# *Qiymətsiz itki*

Falçıyla, qaraçıyla olmayan Sərvanın qəfil qabağına çıxan qadından keçə bilmədi. Qadın onun əlini əlinə aldı. Ovcunu açdı. Çox sözlər danışdı. Keçmişləri çözələdi, gələcəyindən xəbərlər söylədi. Beynin bir küncündəcə ilişib qalan belə bir cümləni "Qiymətsiz itkin olacaq" sözlərini unuda bilmədi. Falçı onu inandırmağa çalışdı. Qoy düyünləri eləyim xəta-baladan sovuşdurum səni.

Oğlan ona əhəmiyyət verməyi özünə ayıb saydı, pul verib aralandı.

Qara qorxu dolmuşdu Sərvanın ürəyinə. Bir yerdə qərar tuta bilmirdi. Tez-tez, lazım oldu, olmadı Gəncəyə gəlir, ata-anasıyla görüşür, geri qayıdırdı.

Son vaxtlar lap dözümsüz olmuşdu. İstəyirdi elə gecəli-gündüzlü evdə qalsın, burdan uzaqlaşmasın. İşlə əlaqəli getməliydi deyə qala bilmirdi.

Bəzən bu gün evdən gedir, sabaha bilet alıb yenidən qayıdırdı.

Bu gün də evdə idi. Adətinə xas olmadığı halda, xeyli işlədi, torpaqla əlləşdi. Anasının çox xoşuna gəldi. Anasının xoşuna gəlməyi ürəyini sevindirdi. Tər tökə-tökə işləyirdi. Birdən bacısı Sərvanə bərkdən qışqırdı:

-Anaa...., Sərvan, tez bura gəl.

Sərvan evə qaçdı. Anası başını tutub qışqırdı:

-Başım, oy başım...

Sərvan onu divana uzandırdı. Qəfil hadisədən elə sarsılmışdı ki, nə baş verdiyini soruşmağa gücü çatmırdı. Yuxarı evə telefonla həkim çağırmağa getmək istəyəndə anası əli ilə "Yox" işarəsini verdi. O, anasının sözünə əməl etmədi. Lakin telefon işləmədi. Qonşuya  qaçdı, həkim gəldi. İynə vurdu, dərman verdi. Anası yatdı, tez də oyandı. Başında dəhşətli ağrı vardı qadının. İkinci dəfə həkim çağırdılar. O, beyinə qan sızma olduğunu qeyd elədi. Yenə iynə dərman verildi, xəstə yatdı.

Sərvan bu ağır məqamlarda ancaq falçı qadını düşünür, onun "Qiymətsiz itkin olacaq" sözlərini beynində dolandırır, özünü öldürmək istəyirdi. Anasının başına iş gələcəyini oğlan ağlına sığışdırmırdı. Küncə, bucağa çəkilib zülüm-zülüm ağlayardı. Vətəndən uzaqlardakı atasını arzulayırdı. Ona elə gəlirdi ki, atası burda olsa anasına heç nə olmaz. O, anasını sağaldar, lakin atası uzaqlarda idi. Onların vay-şüvənini eşitmirdi. "Qiymətsiz itki" məsələsi də lap ağlını çaşdırmışdı. Anası ondan ötrü qiymətsiz idi. Qiymətsiz sözünün mənasını indi dərk eləmiş, indi başa düşmüşdü. Ona elə gəlirdi ki, qiymətsiz, yəni lazımsız bir itkisi olacaq. Beyninin bir küncündəcə özünə yurd salmış bu sözün ağırlığına indi tablamırdı. Anası qiymətsiz idi, qiyməti ölçüsüzdü. O, bunu duyunca ürəyi parçalanır, necə xilas etmək  barəsində düşünürdü. Yalvarırdı:

- Həkim, çox xahiş edirəm, mənim qanımı anama vurun. Həkimin xəstəyə qan vurmaq çəkimi fikri olmasa da Sərvanın ciddi təkidindən keçə bilmədi.

Sərvan eşitmişdi, qan təzyiqi yüksək olanda xəstənin burnunun qanaması yaxşıdı. O istəyirdi ki, anasının burnu qanasın, ona nə qədər qan lazımdı verər. Lakin onun burnunun qanı kəsmişdi. Bu yaxşı deyildi. Anasının burnunu qanatmaq üçün nə edəcəyini bilmirdi. Əli gəlmirdi ki, onu vurub qanatsın. Bir də qorxurdu anası görər, elə bilər onu qəsdlə vurur. Bunu özünə bağışlamazdı, ölərdi. Təkcə onun qan damarından çəkib anasına vurdular.

Axşam anası ayıldı. Sərvanın gözləri qıp-qırmızı idi. Səfurə xanım güman elədi ki, oğlu spirtli içki içib. Yavaşca dedi:

İçmə, qurban olum, içmə, içki bir şey deyil.

Oğlu başını aşağı saldı ki, ağladığını anası görməsin, dedi:

-İçmərəm, ana, daha heç vaxt içmərəm.

Anası gözlərini yenidən yumdu.

Onu xəstəxanaya aparmışdılar. Vəziyyəti get-gedə ağırlaşırdı. Sərvan Bakıya həkim gətirməyə gedirdi. Yolda əvvəl bir qoyun qurban dedi. Az keçmədi anası üçün bir qurbanlıq qoyun kiçik gəldi ona. Ürəyindən keçirdi, təki anam sağalsın, bütün qiymətli əşyalarını yetim-yesirə paylayaram. Ürəyi bununla da sakitləşmədi. Elə bilirdi ki, qurbanları daha qiymətli olsa anasına gələn qada-bala azalar, həmin əşyalara gələr.

Axı onun anası qiymətsizdi, əvəzsizdi. O, ailənin icazəsi olmadan evlərini də qurban dedi. Düşündü:

-Hamımız çadırda yatarıq, incimərik. Bircə anam sağalsın.

Bununla da ürəyi aram olmadı. Qurban deməyə başqa bir şey tapmayanda özünü yadına saldı, üzünü Allaha tutdu, yalvardı:

-Allah məni anama qurban elə, özümü ona qurban deyirəm. O, sağalsın, mən ölüm.

Bu fikirlə Bakıya çatdı. Həkimlə geri Gəncəyə qayıdanda qurbanları qəbul olunmamışdı. Anası işıqlı dünyaya həmişəlik göz yummuşdu. Bu Sərvanın həyatında falçı qadının dediyi kimi, "Qiymətsiz itki" idi.

## *Biz hörmətimizi eləyirik*

Ələsgər Əlioğlu ilə mən, yəni kitabın müəllifi bir gün getmişdik Sədnik müəllimgilə. Sədnik müəllim çay hazırladı. Mən ortalığa iki stəkan-nəlbəki qoydum. Sədnik müəllim təəccübləndi:

-Bəs öünüzə niyə stəkan gətirmədiniz? Mən:

-Çay içmirəm-dedim.

-Ələsgər Əlioğlu və Sədnik müəllim təkid elədilər ki, stəkan-nəlbəki gətirim. Yenə etiraz elədim:

-Siz narahat olmayın, mən heç ömrümdə çay içməmişəm və heç içən də deyiləm. Ona görə nəyə lazımdır, boş-boşuna stəkan-nəlbəki.

Sədnik müəllim çox ciddi təkidlə stəkan-nəlbəkini gətizdirdi və dedi:

-Siz stəkan-nəlbəkini gətirin, qoy görsünlər ki, biz hörmətimizi eləyirik.Mənə də çay süzüldü. Sədnik müəllimin bu sözü xoşuma gəlsə də, çay soyudu.

## *Bizi qırırlar*

1990-ci ilin 20 yanvar günü bütün Azərbaycan xalqının ürəyində çox dərin sağalmayan dərd, kədər şırımı açdı. Rusların və ermənilərin tanklarla, toplarla əliyalın, dinc xalqımızın üzərinə vəhşicəsinə hücumu yüzlərlə insanların fəlakətinə, bədbəxtliyinə bais oldu.

Ölüm haqdı, yaranan öləcək, daha belə yox. Bu ölüm, bu can zülmüydü, işgəncə idi, təhqiriydi bizimçün.

Gəncə Pedogoji İnstitutunun müəllimi Nəzmiyyə xanımın da kədəri aşıb-daşırdı. Dərdini bölüşdürməyə adam axtarırdı. İş yoldaşı, professor Sədnik Paşayevə üzünü tutdu, imdad diləyirmiş kimi sual verdi:

-Niyə belə oldu, Sədnik müəllim, bu işlərin axırı necə olacaq? Həmişə ağır kədəri belə özünəməxsus yumorla yüngülləşdirməyə çalışan, çox ölümlərə, itimlərə adi, təbii baxan, fələyin işi hesab eliyən görkəmli folklorçu alim cibindən dəsmal çıxarıb hönkürdü:

-Bizi qırırlar ay qızım, bizim kökümüzü kəsmək istəyirlər. Xalqın müsibətinə, faciəsinə professorun belə ağlamasını təsəvvürə gətirməyən Nəzmiyyə Axundovanın əli yerdən-göydən üzüldü. Dərdli ürəyinin dərdi daha da artdı. Göz yaşları yanaqlarını yandırdı, Sədnik müəllimin beləcə uşaq kimi ağlaması onu varından yox elədi.

***20 may, 1996-cı il.***

## *Anamın xəyalı*

Metro qatarında gedirdi Sədnik müəllim. Fikri, xəyalı özündən çox-çox uzaqda olan Səfurə xanımlı günlərinə qayıtdı. Yan-yörəsində, başının üstündə dayanan müxtəlif görkəmli, müxtəlif yaşlı insanların ona dəxli yox idi. Adamların iki-bir, üç-bir nə danışdıqlarını da eşitmirdi.

Qəfildən onunla üzbəüz əyləşən qadına nəzər saldı, bir anlğa dünya-aləm gözündə qaraldı, zənn elədi yuxu görür. Üzünü-gözünü dönə-dönə oxaladı, dil-dodağını ağrıyanadək dişlədi.

Bir neçə ay əvvəl sanki ürəyini çıxarıb torpağa tapşırmış sevimli Səfurəsindən fələyin əliylə ayrılmışdı. Gördüyü isə yuxu deyildi. Onun qarşısında əyləşən, ala gözləri yol çəkən, Sədnik müəllimi varlığından yox eyləyən, ayrılıq həsrətinə cəhənnəm əzabına dözürmüş kimi dözdürən Səfurə xanım idi. Kişi çaşmış özünü itirmişdi. Məlul-məlul dərindən baxır, nəfəs almağa belə qorxurdu ki, qadın gözünün qabağından itər.

Düşməyinə yarım dayanacaq qalmışdı, qadın yerindən tərpənmədi. Sədnik müəllim də sanki oturacağa yapışmışdı. İndi elə bir qüvvə tapılmazdı ki, onu ordan aralasın. Bir neçə dayanacaq da beləcə getdilər. Qadın hazırlaşıb düşdü. Qeyri-ixtiyari Sədnik müəllim də onun arxasınca düşdü. Bu anlarda irəlidə gedən qadını itirəcəyindən qorxurdu. O, sanki həyatını, ömrünü, gününü Səfurə xanımla itirmişdi.

Bəs orada gördüyü qadın kimiydi? Beynində bir-birindən ağır suallar dolaşdı:

-Bəlkə könlünə dəymişəm, küsüb başqa yerə gedib, indi qarşıma çıxdı?

-Bəlkə onun ruhudu, mənə söz deməyə gəlib?

-Bəlkə məni də yanına çağırır?

-Bəs niyə dillənmir, niyə məni dindirmir? Of, aman Allah deyəsən dəli oluram axı?

Sədnik müəllim qadnı danışdırmaq, ona söz demək, onun hansı soydan, hansı kökdən olduğunu bilmək marağını boğammırdı. Lakin hansısa qüvvə onun nitqini, bütün cəsarətini əlindən almışdı. Bircə kəlmə danışmağa iqtidarı yoxuydu. Eləcə qarabaqara qadının arxasınca qeyri-ixtiyari irəliləyirdi.

Xəyaldımı, ruhdumu, Səfurə xanımdımı daha burasını Sədnik müəllim araşdıra bilmirdi. Təkcə onu bilirdi ki, qadının ardınca dünyanın o başınadək gedə bilər. Səfurə xanımın da ardınca gedərdi, onun xanımı onunla axıradək getməyib yolunu yarımçıq eləmişdi. Sədnik müəllim ölümün haqq olduğunu bilib təskinlik tapırdı, yəni onun da ölümü gələcək, o qadınına qovuşacaqdı. Bu qadın isə Sədnik müəllimin ağlını başından eləmişdi. Bu qadın Səfurə xanımın özü idi, başqası ola bilməzdi.

Belə fikirlərə məşğul ikən qadın yoxa çıxdı? Sədnik müəllim burasını görmədi, onu gördü ki kimsəsiz küçə ilə gedir. Hara gedir, niyə gedir-soruşsalar uşaqtək gözünü döyər, deməyə söz tapmazdı.

Gəldiyi yolun əksinə, yenidən metro qatarıına mindi. Öz dayanacağında düşdü. Böyük qızı Bakıda yaşayırdı. Onun evinə çox pərişan qayıtdı. Qızı təşvişə düşdü. Atasının halı onu qorxutdu. Lakin o, heç nə öyrənə bilmədi. Atasının ona deyəsi sözü yox idi.

## *Hərənin öz qisməti var*

Sədnik müəllim ömrünün ahıl çağında Gəncə Pedoqoji Universitetinin həyətində bir iş otağı kirayələmişdi. İşçilərə əmək haqqını günəmuzd verirdi. Onların günorta yeməyi üçün ya pulunu ödəyir, ya yemək sifariş edir, ya da gedib kafedə, restoranda yeyirdilər. İş müddətində sular və şirələr əskik olmurdu. Mer-meyvə də həmçinin.

Bir dəfə işçilərdən biri işə gəlməmişdi. İşdə olan qız dedi:

-Sədnik müəllim, filankəs işə gəlməyib, bəlkə günortadan sonra gələcək. O biri işçi də sözə qarışdı:-Yox, daha gecdi, yəqin gəlməz. Sonra sözünün dalını gətirdi:

-Bəlkə də işin axırında gələcək, işləməyib müftəcə pulunu alıb gedəcək. Professor işçilərini səbr və hövsələ ilə dinləyib onlara belə cavab verdi:

-Siz narahat olmayın, a bala, lap işin axırında gəlmiş olsa belə onu boş qaytarmaram, pulunu verib yola salacağam, təki işə gəlsin. Hərənin öz qisməti var. Ona verəcəyim pulun sizə dəxli yoxdu.

## *Müəllif haqqında*

*Aləmzər Əlizadə 1950-ci ildə Gəncə şəhərində anadan olub. 1974-cü ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirib. İlk yazısı 1967-ci ildə "Pioner" qəzetində dərc olunub. Aşağıdakı kitabların müəllifidir:*

**1**. "Sarı eynək". 1973-cü il. Bakı
**2**. "Küsən güllər".1978-ci il.Bakı
**3.** "Şəfəqin sırğaları". 1983-cü il. Bakı
**4.** "Ətirli kəpənək".1986-cı il.Bakı
**5.** "Ülviyyənin kitabı". 1989-cu il. Bakı
**6.** "Göyün işığı".1993-cü il. Bakı
**7**. "Adımdan danışıram". 1994-cü il. Bakı
**8.** "Gözdən çıxan qara tikan". 1997-ci il. Bakı
**9.** "Pyeslər". 1998-cı il. Bakı
**10**."Fələk və mən". 2008-ci il. Gəncə.
**11**."Son çiçək". 2010-cu il

***Əsərləri almanaxlarda, toplularda, dərsliklərdə çap olunub. Aşağıdakıları göstərmək olar:***

**1.** "Göyərçinin hədiyyəsi".1978-ci il. Bakı
**2.** "Mənim bağım, baharım". 1980-ci il. Bakı
**3.** "Alleqoriya və təmsillər". 1988-ci il. Bakı
**4.** "Aprelskiy dojd". 1986-cı il. Moskva
**5.** "Nad vışki morom".1987-ci il. Minsk
**6.** "Dost, əlini uzat".1988-ci il. Özbəkistan
**7.** "Rodnik bratstva".1980-ci il. Ukrayna
**8**. "Odlar yurdu Azərbaycan". 1990-cı il. Bakı
**9.** "Ulu Qoşqar". 2000-ci il. Bakı
**10.** "Ovqat".2000-ci il. Bakı
**11.** "Uşaq ədəbiyyatı".2002-ci il. Bakı.

***Çap olunduğu jurnalların bəzilərinin adları:***

*"Göyərçin", "Azərbaycan qadını", "Pioner", "Azərbaycan", "Herbo və Flora", "Ulduz", "Literaturnıy Azərbaycan", "Yol" (İran), "Murzilka" və "Kolobok" (Moskva)*

***Çap olunduğu qəzetlərin bəzilərinin adları:***

*"Ədəbiyyat", "Azərbaycan gəncləri", "Sovet kəndi", "Azərbaycan müəllimi", "Azərbaycan pione-ri", "Gəncənin səsi", "Sovet Gürcüstanı" (Gürcüs-tan), "Can kaya" (Türkiyə), "Qoca Təpə", Türkiyə", "Yol" (İran).*

*1993-cü il Moskvada çıxan təqvimdə şeirləri dərc olunub. 1986-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.*

*1987-ci ildə "İlin ən yaxşı uşaq kitabı" müsabiqəsində mükafata layiq görülüb, kitabı növbədənkənar buraxılıb. Hazırda Azərbayca Yazıçılar Birliyinin Gəncəbasar bölməsində məsləhətci işləyir.*

***Gəncə Dövlət Kukla teatrında aşağıdakı pyesləri tamaşaya qoyulub:***

1. *"Günah torbası" 1989-cu il.*
2. *"Nəğmə qapısı" 1991-ci il.*
3. *"Şeytanın dostu" 2003-cü il.*
4. *"Toya gecikən tülkü". 2011-ci il.*
5. *Ayının oyanması*

*"Günah torbası" və "Nəğmə qapısı" pyesləri mərkəzi televiziya ilə nümayiş etdirilib, birinci tamaşa televiziyanın "Qızıl fondu"nda saxlanılır.*

*2009-cu ildə Azərbaycan Tele film Yaradıcılıq birliyi Aləmzər Əlizadənin həyat və yaradıcılığından bəhs edən "Yaxşı bax kitabıma" adlı sənədli film çəkib və nümayiş olunub.*

*Yeni kitabları nəşrə hazırlanır.*

# M Ü N D Ə R İ C A T

*Müəllifdən..........................................................................3*

*Tanrının sevdiyi gözəl............................................6*

*Seli  çiyinlərdə keçənlər...........................................10*

*İştahı pozan uşaq..................................................19*

*Oğurluq..........................................................................22*

*Bu mənim oğlumdur..............................................23*

*Şəffaf hörüklərin rəfiqələri.........................................28*

*Sındırılan oyuncaqlar..............................................31*

*Düzəlməyən iş..........................................................36*

*İki ördək...................................................................37*

*Bir şüşə zəhər..........................................................41*

*Bir büküm halva......................................................45*

*Yevlaxdan bura.........................................................47*

*Makinaçı...................................................................50*

*Baldız..........................................................................51*

*Sədnik müəllim tələsir............................................54*

*Mən bir ağac.............................................................58*

*Daşla döyülən qapı..................................................60*

*Ölü yerində qəhqəhə.................................................63*

*Beş dənə qoca...........................................................65*

*Calaq..........................................................................65*
*Uzaqlardan gələn səs..............................................66*
*Onun Sədnik kimi dədəsi yoxdur...................................68*
*Çəngəldən asılan pullar..........................................70*
*Mən gözəlləşirəm.......................................................74*
*Məni də aranızda gizlədin.......................................78*
*Ananın mühavizəçisi...................................................82*
*Qiymətsiz itki...........................................................85*
*Biz hörmətimizi eləyirik...............................................89*
*Bizi qırırlar............................................................89*
*Anamın xəyalı.............................................................91*
*Hərənin öz qisməti var............................................93*
*Müəllif haqqında ........................................................94*

*A L Ə M Z Ə R   Ə L İ Z A D Ə*

# *Ş Ə F F A F   H Ö R Ü K L Ə R İ N*
# *R Ə F İ Q Ə L Ə R İ*

Yığılmağa verilmişdir: 05.12.2012
Çapa imzalanmışdır: 10.01.2013
Qiyməti müqavilə yolu ilə
Tiraj:100